9 noyabr 2018 №82 (1572) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Bəşəri dəyərlər bizə Cümhuriyyətdən miras qalıb

Milli dövlətçilik tariximizin şanlı səhifəsi – müsəlman Şərqində ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi dünyanın müxtəlif ölkələrində təntənəli tədbirlərlə qeyd edilir. "Cümhuriyyət ili"nin tədbirlərindən növbətisi Almaniya paytaxtında gerçəkləşib. Mərasim Cümhuriyyətin yadigarı olan üçrəngli bayrağımızın qəbul olunmasının 100-cü ildönümünə – Dövlət Bayrağı Günü ərəfəsinə təsadüf edib.




Berlində Heydər Əliyev Fondunun və ölkəmizin Almaniyadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən rəsmi qəbulun iştirakçıları əvvəlcə Cümhuriyyətin 100 illiyinə həsr olunan sərgi ilə tanış olublar.

Mərasimdə çıxış edən Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda müxtəlif sahələri əhatə edən fəaliyyəti barədə məlumat verib. O, Heydər Əliyev Fondunun Almaniya ilə də mədəniyyət mübadiləsinə önəm verdiyini, bu ölkədə çoxsaylı elm və mədəniyyət tədbirləri həyata keçirdiyini vurğulayıb.

Ölkəmizin tərəfdar çıxdığı demokratiya, dünyəvilik, dini və mədəni müxtəliflik kimi dəyərlərin bizə Xalq Cümhuriyyətindən miras qaldığını bildirən səfir vurğulayıb ki, vaxtilə Cümhuriyyət qurucularının Azərbaycan xalqının rifahı naminə həyata keçirmək istədiyi, amma sovet işğalının imkan vermədiyi ideyalar bu gün müstəqil respublikamız tərəfindən ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət sayəsində uğurla reallığa çevrilir.

davamı səh. 2-də

## Ankarada Cümhuriyyətin 100 illiyi və Qara Qarayevin yubileyi ilə bağlı kitabların təqdimatı keçirilib

Ankarada – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) qərargahında "Azərbaycan Xalq Cümhuriyyəti - 100. Biblioqrafiya", "Qara Qarayev. Biblioqrafiya" kitablarının təqdimatı olub. Təqdimatda rəsmi şəxslər, səfirlər, elm və mədəniyyət adamları iştirak ediblər.

Əvvəlcə Azərbaycanla bağlı sənədli film nümayiş olunub.

TÜRKSOY-un baş katibi, professor Düsen Kaseinov, Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun çıxışları dinlənilib.

Çıxışlarda Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, onun tarixi, ideyaları, XX əsrin sonunda dövlət müstəqilliyimizin bərpası, bu prosesdəki çətinliklər, ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından bəhs olunub. Vurğulanıb ki, Azərbaycan Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən hazırlanan nəşrlər dövlətçilik tariximizin, o cümlədən mədəniyyətimizin, görkəmli şəxsiyyətlərimizin tanıdılması, gələcək nəsillərin məlumatlandırılması baxımından dəyərli vəsaitdir.

davamı səh. 2-də

## Paytaxtın mədəni həyatına bizimlə daha yaxın olun!

### Qəzetimizin "Afişa" əlavəsinin ilk sayı böyük maraq doğurub

Bir ay öncə yeni format və dizaynda, rəngli tərtibatda nəşrə başlayan "Mədəniyyət" qəzeti daha bir yeniliklə oxucuların görüşünə gəlib. Qəzetin noyabr ayı üzrə ilk "Afişa" əlavəsi çapdan çıxıb.

Mədəniyyət Nazirliyinin təşəbbüsü və dəstəyi ilə hazırlanaraq nəşr olunan "Afişa" əlavəsində Bakı şəhərindəki teatr və konsert müəssisələrinin aylıq repertuarı, sərgi salonlarının, kino nümayişi mərkəzlərinin afişası ətraflı şəkildə oxuculara təqdim olunur. Nəşrdə teatrların repertuarındakı tamaşaların siyahısı, nümayiş günü və saatı barədə məlumatlarla bərabər, ayrı-ayrı tamaşalar haqqında, onların mövzusu, yaradıcı heyəti barədə qısa yazılar, fotolar da verilib. Eyni zamanda, nəşrdə noyabr ayı üzrə paytaxtın müxtəlif qalereyaları, konsert zalları və kinoteatrlarının ümumi afişasından savayı bəzi sərgilər, konsertlər, filmlər barədə anons-informasiyalar dərc olunub.



"Mədəniyyət+Afişa"nın ilk sayında paytaxtın mədəni həyatının geniş spektri – Akademik Milli Dram, Akademik Opera və Balet, Musiqili, Rus Dram, Gənc Tamaşaçılar, Kukla, Pantomima, Yuğ teatrları, Heydər Əliyev Sarayı, Azərbaycan Dövlət Akademik Filarmoniyası, Beynəlxalq Muğam Mərkəzi, Mahnı Teatrı, Bakı Dövlət Sirki, Nizami Kino Mərkəzi, "Cinema Plus" və "Park Cinema" kinoteatrları, sərgi qalereyaları və digər mədəniyyət ocaqlarının tamaşaçıları gözləyən ən müxtəlif tədbirlər əks olunub. Həmçinin hər bir mədəniyyət ocağının ünvanı, telefon nömrələri qeyd olunub.

davamı səh. 4-də



100 illik istiqlalımızın yadigarı

səh. 2

## 9 Noyabr – bayrağımızın ucaldığı, müstəqilliyimizin tanındığı gün

Tale elə gətirib ki, 9 noyabr Azərbaycanın dövlətçilik tarixində iki əlamətdar hadisə ilə yadda qalıb. Bunlardan biri Azərbaycanın üçrəngli bayrağının dövlət rəmzi kimi qəbul olunması – 9 noyabr 1918-ci il; digəri isə yenidən ucalmış bayrağımızın və bərpa olunmuş müstəqilliyimizin ilk dəfə qardaş ölkəmiz Türkiyə tərəfindən tanınmasıdır – 9 noyabr 1991-ci il. Digər yandan, bu iki hadisənin mahiyyətinə diqqət yetirsək, onların arasında tarixi-məntiqi bağlılığı da yəqin edərik...

1918-ci ilin 9 noyabrında Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti mavi, qırmızı, yaşıl rəngli bayrağı dövlətin rəmzi olaraq qəbul edib. Amma bu, Cümhuriyyətin sayca ikinci bayrağı idi. Milli hökumət hələ Gəncədə yerləşərkən, 1918-ci il iyunun 24-də üzərində ağ ay və səkkizguşəli ulduz təsvir olunmuş al-qırmızı bayrağı dövlətin rəmzi olaraq qəbul etmişdi. Həmin bayraq Türkiyə bayrağının, demək olar ki, eynisi idi, yeganə fərq bayraqdakı ulduzun beşguşəli deyil, səkkizguşəli olması idi.

Bu, yenicə qurulan Azərbaycan Cümhuriyyətinə qocaman Türkiyə dövləti – o vaxtlar çətin günlərini yaşayan Osmanlı imperatorluğu – ilə qardaşlığının təcəssümü idi. Və bir anlamda Azərbaycan hökumətinin bizə tarixin ən məsul anında əl uzatmış Türkiyəyə ehtiramının göstəricisi idi.

davamı səh. 6-da

## M.A.P. festivalı "sərhədsiz teatr" konsepsiyasını təqdim edir

Paytaxtda V Beynəlxalq Teatr Konfransının yekunlaşdığı gün sənətsevər və mütəxəssislər üçün xüsusi maraq doğuran daha bir beynəlxalq tədbir – M.A.P. (musiqi, incəsənət, performans) festivalı start götürüb.

"YARAT" Müasir İncəsənət Məkanının layihəsi ikinci dəfə reallaşır. Birincisi ötən ilin noyabrında keçirilən M.A.P. Beynəlxalq Teatr Festivalı bu dəfə əhatə dairəsini genişləndirib. Noyabrın 6-da Bakı Konqres Mərkəzində keçirilən mətbuat konfransında layihə barədə ətraflı məlumat verilib.

"YARAT" Müasir İncəsənət Məkanının bədii direktoru Suad Qarayeva, festivalın əsas sponsoru "Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers və layihənin bədii rəhbəri Kamran Şahmərdan jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

Bildirilib ki, ünsiyyət, təhsil, bilik və təcrübə mübadiləsi üçün platforma kimi götürülən M.A.P. festivalı tamaşaçı auditoriyalarına müasir teatr formalarının geniş diapazonunu araşdırmağa kömək etmək məqsədilə özündə müxtəlif teatr nümunələrini birləşdirir. Noyabrın 11-dək davam edəcək builki festival çərçivəsində Danimarka, Estoniya, Almaniya, İran, İtaliya, Yaponiya, İsveçrə, Rusiya və Britaniyadan teatrların ümumilikdə 16 tamaşası təqdim ediləcək.

davamı səh. 5-də

## Ayrıca bir sənət odası, sənətkarlıq "ada"sı – Əliağa Ağayev...

Dünyaya gəlimindən 105 (1913), gedimindən 35 (1983) il keçən bu anadagəlmə aktyor hər dəfə (!) səhnəyə çıxanda sürəkli "çəpik"lərlə (öz sözüdür) qarşılanıb, gurultulu alqışlarla yola salınıb.

Belə sənətkar haqda danışmaq asan, yazmaq isə çətin. Nədən ki, nitqdə bütün hiss-həyəcanları vermək olur, yazı-pozuda isə yox.

səh. 6

## Müasir estradamızda klassik ənənələrin davamı




səh. 3

## Hərəkət sözdən əvvəl var olub...

Fransada yaşayan həmvətənimiz Emil Səlimov Musiqili teatrda ustad dərsi keçdi

səh. 5



## "Mənim yay tətilim"in birinci sərgisi açılıb

səh. 7

## Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvləri təyin edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, aşağıda adları qeyd olunan şəxslər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvləri təyin ediliblər:

Abdullayev Kamal Mehdi oğlu
Əbdüləziz bin Osman əl-Tüveycri
Əliyeva Leyla İlham qızı
Əlizadə Akif Ağamehdi oğlu
Əlizadə Firəngiz Əliağa qızı
Koiçiro Matsuuro
Nəcəfov Etibar Əli oğlu
Salahov Tahir Teymur oğlu
Şarovski Aleksandr Yakovleviç
Zabelin Mixail Yuryeviç.

Prezidentin "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" 2014-cü il 19 noyabr tarixli sərəncamı ləğv edilib.

## Amalya Əliş qızı Pənahova



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan teatrı və kino sənətinin tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, sənətşünaslıq üzrə elmlər doktoru, professor Amalya Əliş qızı Pənahova 2018-ci il noyabr ayının 8-də ömrünün 74-cü ilində vəfat etmişdir.

Amalya Pənahova 1945-ci il iyunun 15-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1962–1966-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində ali təhsil almışdır.

1964-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul edilən Amalya Pənahova burada 1992-ci ilədək səhnə fəaliyyətini davam etdirmişdir. O, 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaratmış və ömrünün sonunadək həmin teatra rəhbərlik etmişdir.

Zəngin yaradıcılıq axtarışları sayəsində milli teatr və kino sənətinə dəyərli töhfələr vermiş Amalya Pənahova müasir Azərbaycan mədəniyyətində özünəməxsus layiqli yer tutur. Azərbaycan teatrının parlaq ənənələri zəminində formalaşan və bu irsə həmişə sadiq qalan sənətkar gözəl ifa tərzi və yüksək səhnə mədəniyyəti ilə qısa müddət ərzində teatr və kino həvəskarlarının rəğbətini qazanmış, sənətsevərlərin qəlbinə yol tapmışdır. İfadəli səs təmbrinə malik istedadlı aktrisanın milli və dünya dramaturji irsinə müraciət edərək teatr səhnəsində böyük məharətlə canlandırdığı çox sayda yaddaqalan obrazlar öz təbiiliyi, həyatiliyi və lirik-psixoloji dərinliyi ilə səciyyələnir. Onun sənətkar olaraq müasirlərin daxili aləminə peşəkarlıqla nüfuz etmək bacarığı mütəxəssislər tərəfindən təqdirlə qarşılanmışdır.

Amalya Pənahovanın televiziya tamaşalarında yaratdığı unudulmaz personajlar milli televiziyanın fondunda diqqətəlayiq sənət nümunələri kimi qorunub saxlanmaqdadır. Kinofilmlərdəki müxtəlif səpkili rolları aktrisanın bu sənətin incəliklərinə dərindən bələd olduğunu aydın təcəssüm etdirir. Amalya xanımın ekran həyatı bəxş etdiyi dolğun və bitkin surətlər sırasında tarixi-mədəni keçmişimizlə bağlı qadın obrazları Azərbaycan kinematoqrafiyasının nailiyyətlərindən sayılır.

Teatr sənətini pedaqoji fəaliyyətlə uğurla əlaqələndirən Amalya Pənahova respublikada gənc aktyorların yetişdirilməsi üçün böyük əmək sərf etmişdir. O, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

Amalya Pənahovanın Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər lazımınca qiymətləndirilmişdir. O, bir sıra mükafatlara və fəxri adlara layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından "Şöhrət" və "Şərəf" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Tanınmış sənətkar, teatr təşkilatçısı, pedaqoq və səmimi insan Amalya Pənahovanın xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

İlham Əliyev
Mehriban Əliyeva
Novruz Məmmədov
Oqtay Əsədov
Ramiz Mehdiyev
Əli Əhmədov
Fərəh Əliyeva
Əbülfəs Qarayev
Ceyhun Bayramov
Anar Rzayev
Eldar Quliyev
Azər Paşa Nemətov
Rasim Balayev
Şəfiqə Məmmədova
Hacı İsmayılov
Nurəddin Quliyev

Mərhumun cənazəsi vidalaşmaq üçün 2018-ci il noyabrın 9-da saat 11.00-dan 13.00-dək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasında qoyulacaqdır (Füzuli meydanı 1).

## İnnovativ inklüziv təcrübələrə dair treninqlər

"British Council Azərbaycan" "Unlimited" proqramı çərçivəsində ölkəmizdə məhdud imkanlı insanlar tərəfindən yaradılan incəsənəti dəstəkləməkdə davam edir.

"British Council Azərbaycan" Mədəniyyət Nazirliyi ilə əməkdaşlıq şəraitində "Unlimited" proqramı üzrə müxtəlif sahələrdən olan mütəxəssislərlə innovativ inklüziv təcrübələri müzakirə etmək üçün noyabrın 14-15-də "Park Inn" hotelində təlim sessiyaları təşkil edəcək.

Treninqin məqsədi müxtəlif sektorlarda işləyən peşəkarları əlilliyi olan insanların hüquq və imkan bərabərliyi məsələləri ilə tanış etmək və iş yerlərində innovativ və inklüziv təcrübələrin tətbiqi üçün ideyalar hazırlamaqdan ibarətdir.

Təlimlər Böyük Britaniyanın "Shape Arts" təşkilatından Barbara Lisicki və Zoe Partington tərəfindən aparılacaq.

Hər kəs üçün açıq olacaq təlimlərdə iştirak etmək istəyənlər qeydiyyat formasını dolduraraq noyabrın 12-dək dilara.ibrahimova@britishcouncil.az elektron poçt ünvanına göndərə bilərlər.

# Bəşəri dəyərlər bizə Cümhuriyyətdən miras qalıb

### Berlində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan tədbir keçirilib

*əvvəli səh. 1-də*

Azərbaycan-Almaniya münasibətlərindən danışan səfir Almaniyanın federal kansleri Angela Merkelin Azərbaycana səfərinin bütün sahələrdə dinamik inkişaf edən əlaqələrin daha da yaxınlaşması üçün yeni imkanlar açdığını diqqətə çatdırıb. Diplomat həmçinin xalqlarımız arasında münasibətlərin 200 illik tarixinə toxunaraq, elmi, mədəni və humanitar sahədə mövcud əməkdaşlıqdan danışıb. Buna nümunə olaraq, Azərbaycanda alman irsinin təşviq olunmasını, Almaniyada azərbaycanlı gənclərin təhsil almasını, Bakıda Höte İnstitutunun açılmasını, Bakı və Mayns, Sumqayıt və Lüdviqshafen arasında "qardaşlaşmış şəhərlər" münasibətlərini, Berlin Humboldt Universitetində Azərbaycan tarixi kafedrasının fəaliyyət göstərməsini qeyd edib.

Bundestaqın deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars çıxışında 20 ildən bəri davam edən deputat fəaliyyəti dövründə Azərbaycanın keçdiyi böyük inkişaf yolunun şahidi olduğunu deyib. O, rəhbərlik etdiyi parlament qrupunun adından Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə xalqımızı təbrik edib.




Almaniyalı deputat bildirib ki, bundestaqdakı Cənubi Qafqaz parlament qrupunun Azərbaycanla bağlı fəaliyyəti iki prioritetə malikdir. Bunlardan biri ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin təşviqi, digəri isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfə verməkdir. Yohannes Kars sözügedən münaqişənin hər zaman yenidən alovlana biləcəyini əsas gətirərək onun tezliklə həllinə nail olunmasının zəruriliyini vurğulayıb.

Almaniya Xarici İşlər Nazirliyinin xarici elm, təhsil, tədqiqat və mədəniyyət siyasəti üzrə xüsusi nümayəndəsi səfir Haydrun Tempel 100 illik yubiley münasibətilə Almaniya hökuməti adından Azərbaycanı təbrik edib. Bir neçə il əvvəl Bakıda səfir olaraq çalışmış alman diplomat ölkəsinin digər sahələrlə yanaşı, mədəni və humanitar məsələlərdə də Azərbaycanla sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb və Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illiyi münasibətilə həyata keçirilən layihələri vurğulayıb. Haydrun Tempel, həmçinin Azərbaycanın nəhəng regional layihələrin təşəbbüskarı və iştirakçısı olduğunu, ölkəmizin bölgədə böyük iqtisadi gücə çevrildiyini qeyd edib.

Çıxışlardan sonra Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunan sənədli film nümayiş etdirilib.

Tədbirdə tanınmış musiqiçilər Elçin Şirinovun, Şəhriyar İmanovun ifasında musiqi proqramı təqdim olunub.



# Ankarada Cümhuriyyətin 100 illiyi və Qara Qarayevin yubileyi ilə bağlı kitabların təqdimatı

*əvvəli səh. 1-də*

Natiqlər Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi, o cümlədən Qara Qarayevin yubileyinin qeyd olunmasını ölkəmizdə möhkəm təməl üzərində formalaşan dövlətçilik ənənələrinin nümunəsi kimi dəyərləndiriblər.

Çıxışlarda, həmçinin Heydər Əliyev Fondu tərəfindən Azərbaycan mədəniyyətinə dair əsərlərin hazırlanması və beynəlxalq aləmə çatdırılması istiqamətində



həyata keçirilən böyük layihələrin nəticələrindən danışılıb.

Tədbir çərçivəsində Azərbaycan Milli Kitabxanası tərəfindən ölkəmizin tarixinə, ənənələrinə, mədəniyyətinə aid kitablar sərgilənib.

Sonra tədbir panellər üzrə davam etdirilib. Milli Kitabxananın direktoru, professor Kərim Tahirov təqdim olunan nəşrlər və görülən digər işlər barədə ətraflı məlumat verib.

Tədbir Qara Qarayev və digər Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə başa çatıb.

## Bostonda Azərbaycanın Dövlət Bayrağı Günü

ABŞ-ın ən böyük şəhərlərindən olan, ölkənin təhsil mərkəzlərindən biri kimi tanınan Bostonda Azərbaycanın Dövlət Bayrağı Günü ilə bağlı tədbir keçirilib.

Ölkəmizin ABŞ-dakı səfiri Elin Süleymanov çıxış edərək müsəlman Şərqində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin mirası olan bayrağın 100 il öncə Cümhuriyyət qurucuları tərəfindən ucaldıldığını diqqətə çatdırıb.

Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra üçrəngli bayrağın yenidən dövlət rəmzinə çevrildiyini vurğulayan diplomat ölkəmizin müasir inkişafından, bu sahədə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətdən bəhs edib.

Bostonda keçirilən ABŞ-Xəzər İnnovasiya Forumuna diqqət çəkən səfir bu tədbirin Azərbaycan Prezidentinin innovasiya siyasətinin uğurunun göstəricisi olduğunu deyib.

Daha sonra Yüksək Texnologiyalar Parkının direktoru Tural Kərimli çıxış edərək Azərbaycanda innovativ texnologiyaların inkişafı üçün atılan addımlardan danışıb.

Bostonda yaşayan Azərbaycan icmasının nümayəndəsi Mirkamran Abdullayev çıxış edərək Dövlət Bayrağı Gününün hər bir azərbaycanlı üçün önəmindən bəhs edib.

## TÜRKSOY-un orkestri Yaponiyaya gedir

TÜRKSOY-un Xalq çalğı alətləri orkestri ilk dəfə Yaponiyada geniş konsert proqramı ilə çıxış edəcək. Təşkilatın 25 illiyi münasibətilə keçiriləcək konsertlərdə 12 ölkədən 50 artistin iştirakı gözlənilir.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Türkiyənin Tokiodakı səfirliklərinin dəstəyi ilə təşkil ediləcək konsertlər Tokio, Kavasaki, Hamamtsu və Yokohama şəhərlərində gerçəkləşəcək. 2016-cı ildə yaradılan Xalq çalğı alətləri orkestrinin məqsədi Türk dünyasına məxsus olan, lakin milli cəhətləri ilə seçilən ənənəvi musiqi və rəqslərlə bütün dünyanı tanış etməkdir.

Orkestrdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Türkiyə, Rusiya Federasiyasının Altay, Tatarıstan, Başqırdıstan, Xakasiya, Tuva, Saxa-Yakutiya respublikaları, həmçinin Monqolustan və Qaqauziyadan (Moldova) olan ifaçı və solistlər yer alıb.

Noyabrın 13-də Tokio Universitetində konsertlə başlanacaq səfər proqramı ayın 20-də başa çatacaq.

# Üçrəngli bayrağımız – 100 illik istiqlalımızın yadigarı

9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə Bakı Biznes Mərkəzində "Azərbaycan Respublikasının Dövlət bayrağı – 100 illik istiqlalımızın qürur mənbəyi" mövzusunda elmi-praktik konfrans keçirilib.

Dənizkənarı Bulvar İdarəsinin Dövlət İdarəçilik Akademiyası ilə birgə təşkil etdiyi tədbirdə Azərbaycan bayrağının mənəvi, siyasi və ideoloji əhəmiyyəti barədə söhbət açılıb. Bulvar İdarəsinin Aparat rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elmir Bağırov, AMEA-nın müxbir üzvü, Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlı, Dövlət İdarəçilik Akademiyası Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova, Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov və digər qonaqlar məruzələrlə çıxış ediblər.

Tədbir Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin müəllim və şagirdlərinin iştirakı ilə keçirilən konsertlə başa çatıb. Konfransın təşkilatçıları maraqlı proqrama görə məktəb rəhbərliyinə minnətdarlıq ediblər.



* * *

Dövlət Bayrağı Gününə həsr edilmiş daha bir tədbir "Aytam" uşaqların mədəni maariflənməsi İctimai Birliyinin təşkilatçılığı ilə Milli Kitabxanada keçirilib.

Tədbir qurumun QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə həyata keçirdiyi "1918-ci il azərbaycanlıların soyqırımı həqiqətlərinin gənclər arasında təbliğinin təşkili" layihəsi çərçivəsində reallaşıb.



İctimai birliyin sədri Aygün Zamanlı, istefada olan polkovniklər Arif Əliyev və Hamlet İsmayılov tədbirdə çıxış ediblər. Gənclərin tariximizi dərindən bilməsinin vacibliyini söyləyən çıxışçılar 1918-ci ildə ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımlardan, Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs ediblər.

Tədbirdə paytaxtın Nərimanov rayonu 45 və 212 nömrəli məktəblərin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub.

# Mədəniyyət idarələrinin fəaliyyətinə həsr olunmuş müşavirə keçirildi

Noyabrın 7-də Azərbaycan Milli Kitabxanasında mədəniyyət nazirinin müavini Rafiq Bayramovun sədrliyi ilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və regional mədəniyyət idarələrinin fəaliyyətinə həsr olunmuş müşavirə keçirildi.



Yığıncaqda nazirliyin müvafiq struktur bölmələrinin əməkdaşları, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və 15 regional mədəniyyət idarəsinin rəisləri iştirak edirdi.

Müşavirədə çıxış edən Rafiq Bayramov nazirlikdə 2018-ci ildə aparılan islahatlar haqqında danışdı. Vurğuladı ki, həyata keçirilən islahatlar həm Bakıda, həm də regionlarda mədəniyyət sahəsinin daha da inkişafına yönəlib.

Nazir müavini qeyd etdi ki, ötən müddətdə görülən işlərlə yerində tanış olmaq üçün Regional siyasət şöbəsinin müdiri Pərviz İsgəndərli bölgələrə ezam olunub: "Bu gün keçirdiyimiz müşavirənin də əsas məqsədi həyata keçirilən islahatlar nəticəsində qarşıya qoyulan yeni hədəflərə nail olmaq istiqamətində atılan addımların müzakirəsidir. Təşkil olunan ezamiyyət hər hansı yoxlama xarakteri daşımırdı. Məqsəd regionlarda həyata keçirilən işlərlə yerində tanış olmaq, xüsusilə dövlət qulluqçularının iş qabiliyyətinin vəziyyətini öyrənmək idi. Son bir neçə ildə nazirlik sistemində həyata keçirilən dəyişikliklərdən sonra mədəniyyət sahəsinə diqqət daha da artırılıb. Bizim fəaliyyətimiz indi sırf mədəniyyət sahəsinin inkişafı, mədəniyyət müəssisələrinin düzgün idarə olunmasını təmin etməkdən ibarətdir".

Rafiq Bayramov diqqətə çatdırıldı ki, ölkəmizdə mədəniyyət siyasətinin daha məqsədyönlü və effektiv şəkildə həyata keçirilməsi, müvafiq sahələrin idarə olunmasında innovasiyaların, elmi nailiyyətlərin, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi daha da genişləndirilir.

Regional siyasət şöbəsinin müdiri Pərviz İsgəndərli qeyd etdi ki, bölgələrdə göstərilən mədəni xidmətlərin səviyyəsinin artırılması, regionların mədəni həyatının müasir inkişaf səviyyəsinə uyğun qurulması yönündə işlər davam etdirilir: "Bu sahə Mədəniyyət Nazirliyinin prioritet istiqamətlərindən biridir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün ilk növbədə regionlardakı mədəniyyət müəssisələrinin cəlbedici fəaliyyətinin təmin olunması, regional idarələrin beynəlxalq əlaqələrinin qurulması, informasiya texnologiyalarından istifadənin daha da artırılması, ödənişli xidmətlərin təşkili həyata keçirilməlidir. Ötən müddət ərzində bu istiqamətdə bir sıra nəticələr əldə olunub".

Vurğulandı ki, regional idarələrin fəaliyyətinin daha da gücləndirilməsi üçün ixtisaslı kadrlarla təminat məsələsi daim diqqətdə saxlanılır.

Sonda nazir müavini Rafiq Bayramov regionlarda mədəniyyət sahəsinin inkişafı, keçirilən tədbirlərin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində tapşırıq və tövsiyələrini verdi.

**FARİZ**

# Müasir estradamızda klassik ənənələrin davamı

## Tofiq Quliyevin 100 illiyinə həsr edilmiş "Estrada mahnısı" müsabiqəsi qaliblərinin qala-konserti




Bulaq suyu kimi təmiz, insanın ruhunu oxşayan, incə, həm də şaqraq musiqi sədaları altında Bakımızı, Xəzəri seyr etməkdən doymur ürək. Şəhərlə dənizin vəhdəti sanki özü bir musiqidir, mahnıdır. İlk dəfə bu mahnıları kimin səsləndirdiyini demək çətin olsa da, onları qədim şəhərin məşhur övladı Tofiq Quliyev bəstələyib...

Noyabrın 7-də Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin anadan olmasının 100 illiyinə həsr edilən birinci "Estrada mahnısı" müsabiqəsi qaliblərinin mükafatlandırılması və qala-konserti keçirildi.

Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) və "Mədəniyyət" kanalının təşkilatçılığı ilə keçirilən gecədə ilk olaraq bəstəkarın zəngin ömür salnaməsindən bəhs edən videoçarx nümayiş etdirildi, həyat və yaradıcılığı haqqında məlumat verildi.

Bildirildi ki, birinci estrada mahnı müsabiqəsinin keçirilməsində əsas məqsəd unudulmaz bəstəkarın yüksək peşəkarlıqla yaratdığı musiqi incilərini örnək götürərək estrada janrında melodik zənginliyi, musiqi və mətn vəhdəti, forma mükəmməlliyi, mövzu seçimi, mənəvi-estetik səviyyəsi ilə ədəbi-bədii meyarlara cavab verən yeni mahnıları aşkar etməkdir.

Qeyd olundu ki, Tofiq Quliyevin adı çəkiləndə, mahnıları səslənəndə göz önündə ilk olaraq Bakı canlanır. Çünki bəstəkar doğulub boya-başa çatdığı şəhərə könüldən bağlı idi. Ölməz əsərləri ilə milyonlarla insanın bədii zövqünü oxşayan ölməz sənətkar musiqiyə erkən yaşlarından maraq göstərmişdi. O, xalq mahnılarının gözəlliyindən ilhamlanaraq neçə-neçə gözəl əsərlər yaradıb. Bu nəğmələr elləri dolaşır, könüllərə hakim kəsilir.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə bildirdi ki, müsabiqə yeni adların estrada sənətinə gəlişi, Tofiq Quliyevin musiqi ənənələri və klassik estrada məktəbinin qorunmasına xidmət edir.

Qeyd edək ki, ötən ilin dekabrın 8-də elan edilən müsabiqənin 1-ci seçim turuna ümumilikdə 57 peşəkar və həvəskar bəstəkar tərəfindən 87 mahnı təqdim olunub. Şərtlərə görə müsabiqəyə təqdim edilən mahnılar heç yerdə səslənməmiş, dövrü mətbuatda dərc edilməmiş, vokal ilə müxtəlif tərkibli instrumental ansambl və ya estrada orkestri üçün yazılmalı idi. Bu ilin mart-aprel aylarında müsabiqənin seçim turları keçirilib, oktyabrın sonunda qaliblər müəyyənləşib. Müsabiqənin nəticələri noyabrın 6-da Bəstəkarlar İttifaqında keçirilən tədbirdə elan edildi. Təqdim olunan əsərlər Xalq artistləri Firəngiz Əlizadə, Rauf Babayev, əməkdar artistlər Gövhər Həsənzadə və Vüqar Camalzadədən ibarət münsiflər heyəti qiymətləndirilib.

Müsabiqədə I yerə "Sarı gül" mahnısına (sözləri Nüsrət Kəsəmənlinin) görə bəstəkar Rəna Qədimova, II mükafata "Azərbaycan" mahnısına (sözləri - Fəxrəddin Ziya) görə bəstəkar, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov, III mükafata "Nağıl gecəm" mahnısına (sözləri - Bəxtiyar Vahabzadə) görə bəstəkar İlahə İsrafilova layiq görülüb. ABİ üzvləri Zabitə Məmmədovanın "Bakı-qədim şəhərim" (sözləri Simuzər Nüsrətbəylinin), Yalçın Məlikovanın "Sözlər yanar" (sözləri Vahid Əzizin) və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin II kurs tələbəsi Lalə Əhmədovaya "Qalx ayağa, Vətənim" (sözləri Bilal Ənsərin) mahnıları diplomla təltif olunub.

Gecədə Əməkdar incəsənət xadimi Sərdar Fərəcov çıxış edərək müsabiqədə ikinci yerə layiq görülməyindən məmnunluğunu ifadə etdi. Estrada sənətimizin inkişafı üçün belə müsabiqələrin əhəmiyyətini qeyd edən bəstəkar vurğuladı ki, gələcəkdə bu müsabiqənin verdiyi stimulla neçə-neçə gözəl əsərlər yaranacaq.

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi bildirdi ki, Tofiq Quliyev musiqini sevən hər bir azərbaycanlının qəlbində yaşayır. Onun musiqisi xarici ölkələrdə də sevilir.

Bəstəkarın doğum günündə reallaşan konsertdə Tofiq Quliyev bəstələri ilə yanaşı, Azərbaycan estradasının sevilən örnəkləri də səsləndi. Müsabiqənin qalib əsərləri də tamaşaçıların gurultulu alqışları ilə qarşılandı. Gənc və tanınmış ifaçıların təqdimatında səslənən yeni əsərlər müasir estradamızda klassik ənənələrin davamı olaraq tamaşaçıların zövqünü oxşadı.

Konsert proqramında ifaçıları Niyazi adına Dövlət Simfonik Orkestri, Azərbaycan Televiziyası və Radiosunun C.Cahangirov adına Xor kapellası və Estrada simfonik orkestri müşayiət edirdi.

**LALƏ SAVALAN**

## Unudulmaz bəstəkarın xatirə gecəsi

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi nəzdində fəaliyyət göstərən Klassik musiqisevərlər klubunda Azərbaycan estrada musiqisinin yaradıcılarından birinin – Tofiq Quliyevin xatirə gecəsi keçirilib.



Muzeyin filialının – Niyazinin ev-muzeyinin direktoru, Əməkdar mədəniyyət xadimi Rza Bayramov diqqətə çatdırıb ki, hər çərşənbə günü Klassik musiqisevərlər klubunda müxtəlif tədbirlər keçirilir. Növbəti tədbir günü – 7 noyabr Tofiq Quliyevin ad gününə təsadüf etdiyi üçün görkəmli bəstəkarın yaradıcılığına həsr olunub.

Bakı Musiqi Akademiyasının müəllimləri – sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərgiz Hüseynova və Aytən İbrahimova Tofiq Quliyevin həyat və yaradıcılığından söhbət açıblar. Çıxışlarda qeyd olunub ki, Tofiq Quliyev Azərbaycan muğamlarını nota köçürən ilk bəstəkarlardan biridir. O, 1936-cı ildə bəstəkar Z.Bağırov ilə birlikdə "Rast", "Segah", "Zabul", "Dügah" muğamlarının şöbə və guşələrini nota köçürərək musiqi aləminə böyük töhfə verib. Tofiq Quliyevin bəstələdiyi mahnılar, filmlərə yazdığı musiqi Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olub.

Tədbirin sonunda Bakı Musiqi Akademiyasının doktorantı Rüfət Piriyevin və məzunu Güllü Məmmədovanın ifasında Tofiq Quliyevin hamı tərəfindən sevilən nəğmələri səslənib.

## Regionlardan xəbərlər

**Sumqayıt**



N.Nərimanov adına Mədəniyyət Mərkəzində Sumqayıt Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə Dövlət Bayrağı Gününə həsr edilmiş musiqili gecə keçirilib.

Sumqayıt Regional Mədəniyyəti İdarəsinin rəisi Mehman Şükürov şəhərdə aparılan abadlıq və quruculuq işlərindən, inşa edilən mədəniyyət obyektlərindən, mədəniyyət sahəsində həyata keçən layihələrdən danışıb.

Daha sonra Malik Məmmədovun aparıcılığı ilə davam edən konsertdə Sumqayıtın yetirmələri olan sənət adamlarının ifaları dinlənilib. Əməkdar artistlər Ədalət Şükürov və Nüşabə Ələsgərli, müğənnilər Sevda Kazımova, Mənzurə Musayeva, Rəhilə Quliyeva, aşıq Ulduz və Sədaqət Quliyevaların çıxışları, "Xəzri" rəqs, "Gilavar" instrumental ansamblının ifası alqışlarla qarşılanıb.

**Xaçmaz**

Rayon Tarix-Diyarşünaslıq muzeyində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 90 illiyi ilə əlaqədar kitabxana ictimaiyyəti və ziyalılar ilə görüş keçirilib.

Tədbirdə Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev, regionlarda belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb.

Respublika Gənclər Kitabxanasının direktoru Oruc Quliyev, kitabxana sahəsində görülən işlərdən, yeniliklərdən, Bakı Dövlət Universitetinin Kitabxana-informasiya fakültəsinin dosenti, tarix üzrə fəlsəfə doktoru Pərviz Kazımı elektron kitabxana, sosial şəbəkələrdə kitabxanaların fəaliyyətindən bəhs edib.

**Qusar**



Rayondakı Heydər Əliyev Mərkəzində general Mahmud Əbilovun 120 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin Qusar rayonu üzrə nümayəndəsi Davud İbramxəlilov, idarənin rəisi Nazim Ağayev generalın həyat yolundan söhbət açıblar. Muzeyin əməkdaşları L.Bağırova və T.Nəsruyevanın məruzələri dinlənilib.

Rayon Veteranlar evinin sədri C.Məmmədov, "General Mahmud Əbilov" kitabının müəllifi H.Yargunvi də general-mayorun gənclərə örnək ola biləcək həyat yolu haqqında çıxış ediblər.

Şagirdlərin söylədiyi şeirlər, İncəsənət məktəbinin xorunun ifasında "Torpağın səsi" mahnısı tədbirə rəng qatıb. Sonda "Kiçik kəndin böyük generalı" filmi nümayiş olunub.

**Şəki**

Tarix-Diyarşünaslıq muzeyində "Mənim bayrağım – mənim qürurum" adlı tədbir təşkil olunub. Muzeyin direktoru Yaqut Cəlalova, Xalq Tətbiqi Sənəti Muzeyinin direktoru İradə Abdullazadə mövzu ilə bağlı çıxış ediblər.

Tarix-Diyarşünaslıq Muzeyinin, Şəki Xalq Tətbiqi Sənəti Muzeyinin və 6 saylı kitabxananın kollektivləri iştirak etdiyi tədbirdə "9 noyabr Dövlət Bayrağı Günüdür" adlı sərgi təşkil edilib.

**Füzuli**




Füzuli Dövlət Dram Teatrı Beyləqan rayonunda N saylı hərbi hissənin yaranmasının ildönümü ilə əlaqədar konsert-tamaşa proqramı ilə çıxış edib.

Proqramda teatrın repertuarında olan tamaşalardan parçalar, artistlərin ifasında hərbi-vətənpərvərlik mahnıları təqdim olunub.

Sonda teatr kollektivi mütəmadi olaraq hərbi hissədəki davamlı çıxışlarına görə hərbi hissə rəhbərliyi tərəfindən fəxri fərmanla təltif olunub.

# "Yeni nəsil dəvət edir"

## Tələbələrinin ifasında populyar mahnı və romanslar səslənib

Noyabrın 6-da Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqi sənəti fakültəsinin tələbələrinin "Yada düşər xatirələr" adlı konserti keçirilib.

Azərbaycan bəstəkarlarının mahnı və romanslarından ibarət konsert Beynəlxalq Muğam Mərkəzinin və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə "Yeni nəsil dəvət edir" layihəsi çərçivəsində reallaşıb.

Konsertdə tələbələrin ifasında E.İbrahimovanın "Daha məndə dözüm yox", "Ey vətən", A.Səmədzadənin "Bu dünyanı nağıl bilək", E.Sabitoğlunun "Neyləyim", "Sən mənim deyilsən", T.Quliyevin "Yol ayrıcında", "Ey sevincim Bakı", "Kimsən sən", X.Mirzəzadənin "Yadındamı", Ə.Abbasovun "Heyran olmuşam", İ.Babayevanın "O gözlər", S.Əliyevanın "Qayıt əzizim", V.Adıgözəlovun "Qərənfil", "Şuşam lay-lay", P.Bülbüloğlunun "Gəl, ey səhər" mahnıları səslənib.

Sonda konsertin bədii rəhbəri –Estrada sənəti kafedrasının müdiri Məryəm Babayeva tədbirin təşkilində əməyi olan hər bir kəsə minnətdarlığını bildirib.

**LALƏ**

## “Bakıda mədəni səfərbərliyə heyran oldum”

Beynəlxalq Muzeylər Şurasının (İCOM) prezidenti Suay Aksoy Azərbaycan Xalça Muzeyinin direktoru Şirin Məlikovaya məktub ünvanlayıb. O, məktubda oktyabrın 10-12-də Xalça Muzeyində İCOM-un iki beynəlxalq komitəsinin dəstəyi ilə keçirilmiş “Dekorativ sənət və interyer” adlı konfrans haqqında xoş sözlərini ifadə edib.



Xalça Muzeyi tərəfindən ölkəmizə dəvətinə və burada gördüyü qonaqpərvərliyə görə minnətdarlığını bildirən Suay Aksoy, həmçinin ona Azərbaycan muzeyləri və irsi haqqında ətraflı bilgi almaq imkan yaradıldığı üçün Ş.Məlikovaya təşəkkür edib.

“Mədəniyyət naziri, Heydər Əliyev Fondunun, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunun rəsmiləri və Bakını qlobal mədəniyyət mərkəzinə çevirməkdə əməyi olan insanlarla məhsuldar söhbətlərimin nəticəsində belə qənaətə gəldim ki, nəinki Bakıda, bütün ölkənizdə mədəni səfərbərlik var və buna heyran oldum”, – deyə o, məktubunda qeyd edir.

Suay Aksoy ölkəmizdə müvafiq qurumların qabaqcıl texnologiyalar və təşkilati imkanlarla təchiz olunmuş konfrans zalları və incəsənət mərkəzlərinin olmasını xüsusi qeyd edərək bunu İCOM İcraiyyə Şurasına təqdim edəcəyi hesabatda da vurğulayacağını bildirib.

## İranlı qonaq Milli Kitabxanada

Beynəlxalq Teatr Konfransının iştirakçısı olan İran İslam Respublikasının Mədəniyyət və Kitabxanalar üzrə baş müdiri Məhəmməd Pur Azərbaycan Milli Kitabxanasında olub. Kitabxananın direktoru, professor Kərim Tahirov ilə görüşdə qarşılıqlı maraq doğuran məələr müzakirə edilib.



Təbrizli qardaşlarımızla əməkdaşlıqdan məmnunluğunu ifadə edən Kərim Tahirov Milli Kitabxananın Təbrizdə keçirilən beynəlxalq kitab sərgilərində iştirakını və Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayevin göstərişi ilə İranın kitabxanalarına müntəzəm olaraq Milli Kitabxana tərəfindən ölkəmizlə bağlı nəşrlər göndərilməsini xüsusi qeyd edib.

Məhəmməd Pur Təbrizdə iki böyük kitabxananın olduğunu və onların Milli Kitabxana ilə əməkdaşlığının xüsusi əhəmiyyət daşıdığını qeyd edib. Bu məqsədlə ilk addım kimi növbəti tədbirlərə Azərbaycan Milli Kitabxanasını dəvət edəcəyini xüsusilə diqqətə çatdırıb. O, Firdovsi, Hafiz Şirazi, Məhəmmədhüseyn Şəhriyarın və digər ədiblərin əsərlərinin və “Molla Nəsrəddin”in nadir nüsxələrinin Təbriz Mərkəzi Kitabxanasının fondunda xüsusi yer tutduğunu bildirib və bu cür dəyərli nəşrlərin fotosurətinin Azərbaycan Milli Kitabxanasına veriləcəyini söyləyib.

Sonda qarşılıqlı kitablar hədiyyə edilib.

## “Qürur mənbəyimiz”

Noyabrın 7-də İstiqlal Muzeyində Azərbaycanın Dövlət bayrağının qəbul edilməsinin 100-cü ildönümü münasibətilə “Qürur mənbəyimiz” adlı musiqili-bədii tədbir keçirildi.

Üçrəngli bayrağımız 9 noyabr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib, 1920-ci ilin 28 aprel işğalınadək Cümhuriyyətin dövlət rəmzi olub. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Cümhuriyyətin irsinə, o cümlədən bayrağına sahib çıxıb.

Prezident İlham Əliyevin 2009-cu ildə imzaladığı sərəncama əsasən noyabrın 9-u Dövlət Bayrağı Günü elan edilib.

Tədbirdə Təhsil Nazirliyi Gənclərin Respublika bədii yaradıcılıq evinin təqdimatında musiqili-bədii proqram nümayiş etdirildi.

Tədbirdə Xüsusi Dövlət Mühafizə Xidmətinin, Dövlət Sərhəd Xidmətinin əsgərləri, məktəblilər və digər qonaqlar iştirak edirdi.

**S.FƏRƏCOV**



## Üzeyir Hacıbəylinin yaradıcılığı rəssamların gözü ilə...



İçərişəhərdə yerləşən “Art Tover” qalereyasında dahi bəstəkar Üzeyir Hacıbəylinin yaradıcılığına həsr edilmiş plener keçirilib.

Tədbir Mədəniyyət Nazirliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, “Art Council Azerbaijan” təşkilatının birgə təşkilatçılığı ilə reallaşıb.

Fırça ustaları dahi bəstəkarın portretini və yaradıcılıq fəaliyyətini rəsm qalereyasının sərgi salonunda tablolara köçürüblər.

Plenerdə gənc rəssamlarla yanaşı, yaşlı nəsli təmsil edən fırça ustaları da iştirak ediblər. Plener sənətkarların təkmilləşdirilməsi, istedadlı gənclərin və yaradıcı ziyalıların dəstəklənməsi məqsədi daşıyır.

# Opera və Balet Teatrına yeni baş dirijor və musiqi rəhbəri təyin edilib

Əməkdar artist, Prezident mükafatçısı, dirijorların beynəlxalq müsabiqələrinin laureatı Əyyub Quliyev Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri vəzifəsinə təyin edilib.

Əyyub Quliyev 2005-ci ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Dirijorluq fakültəsini bitirib. N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasının aspiranturasında və Vyana Dövlət Musiqi və İncəsənət Universitetində təhsil alıb. Tələbə ikən o, dirijor kimi fəaliyyətə başlayıb.

2011-ci ildən Opera və Balet Teatrında çalışır. BMA-nın Xor dirijorluğu kafedrasının dosentidir.



Sənət fəaliyyətinə görə müxtəlif mükafatlarla təltif olunub. 1998-ci ildə adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılmaqla Prezident təqaüdünə layiq görülüb. 2008-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin “Zirvə” mükafatının, 2015-ci ildə “Humay” milli mükafatının qalibi olub.

Əyyub Quliyev dirijor kimi dünyanın bir çox ölkələrində çoxsaylı qastrol səfərlərində olub. B.Safonov adına Filarmonik və Novosibirsk Filarmonik orkestrləri (Rusiya), London Kral Filarmonik Orkestri, Vyana Dövlət Kamera Orkestri, Slovakiya Dövlət Kamera Orkestri, Türkiyə Prezident Simfonik Orkestri, A.Toskanini adına Filarmonik Orkestr (İtaliya), Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və s. kollektivlərilə çıxış edərək Azərbaycan simfonik musiqi sənətini layiqincə təmsil edib.

# Paytaxtın mədəni həyatına bizimlə daha yaxın olun!

## Qəzetimizin “Afişa” əlavəsinin ilk sayı böyük maraq doğurub

*əvvəli səh. 1-də*

Rəngli tərtibatda, yığcam, praktik formatda hazırlanan nəşrin səhifələrində hər kəs öz zövqünə, maraq dairəsinə, ən əsası isə, istədiyi günə, saata uyğun tamaşa, film, sərgi, konsert və s. tapa, vaxtını mənalı və səmərəli dəyərləndirə bilər.

Ayda bir dəfə çap olunması planlaşdırılan nəşrin məqsədi paytaxt sakinlərini, xüsusilə gəncləri, eləcə də Bakıya gələn qonaqları şəhərdəki mədəniyyət ocaqlarının fəaliyyəti barədə məlumatlandırmaq, həmin məkanlara marağı daha da artırmaq, əhalinin mədəni istirahətinin daha dolğun təşkili üçün mədəniyyət müəssisələrinin fəaliyyətini təşviq etmək, onlara informasiya dəstəyi verməkdir.

**“Mədəniyyət+Afişa” şəhərin müxtəlif məkanlarında sakinlərə təqdim edilib**

Noyabrın 8-də “Mədəniyyət+Afişa”nın ilk sayının nüsxələri Mədəniyyət Nazirliyinin və “ASAN Könüllüləri” təşkilatının dəstəyi ilə paytaxtın müxtəlif məkanlarında – 1 saylı “ASAN Xidmət” mərkəzi, “Park Bulvar”, metronun “İçərişəhər”, “Elmlər Akademiyası” stansiyalarının giriş və çıxışlarında pulsuz olaraq yayılıb.

Günün birinci yarısında nəşr 1 saylı “ASAN Xidmət” mərkəzində vətəndaşlara paylanılıb. Paytaxtın mədəni həyatını özündə təcəssüm etdirən “Afişa” maraqla qarşılanıb.

Daha sonra “Mədəniyyət” qəzetinin “Afişa” əlavəsi metronun “İçərişəhər”, “Elmlər Akademiyası” stansiyalarının giriş və çıxışlarında sakinlərə, o cümlədən çoxlu sayda tələbə gənclərə paylanılıb. Onlar yeni nəşrə böyük maraq göstərək bu təşəbbüsü müsbət qiymətləndiriblər.

“Mədəniyyət+Afişa” günün ikinci yarısında “Park Bulvar” ticarət mərkəzində də paytaxt sakinlərinə və şəhərimizin qonaqlara təqdim edilib. İlk dəfə belə bir nəşrin işıq üzü görməsini rəğbətlə qarşılayan sakinlər layihənin əhəmiyyətini qeyd edərək bu cür aksiyaların davamlı olub-olmayacağı ilə maraqlanıblar. Diqqətə çatdırılıb ki, nəşrin ayda bir dəfə çap olunması və yayılması nəzərdə tutulub.

Vurğulanıb ki, növbəti saylarda nəşrin həm mədəniyyət ocaqlarını əhatə, həm də mövzu və informasiya baxımından daha da zənginləşdiriləcək. Şəhər sakinlərinə Mədəniyyət Nazirliyinin həyata keçirdiyi digər layihələrlə də bağlı məlumat verilib.

**FARİZ**








## Biznesdən sənətə dəstək

Azərbaycan Milli İncəsənət Muzeyində “Carlsberg Azerbaijan” şirkətinin təşəbbüsü ilə “Portrait now! 2019” müsabiqəsinin təqdimatı olub.

Muzeyin İnnovasiyalar şöbəsinin müdiri Səbinə Ağamirova bildirib ki, “Carlsberg” şirkəti dünyada təkcə pivə istehsalçısı kimi məşhur deyil, həmçinin incəsənətə böyük önəm verən təşkilat kimi tanınır.

“Carlsberg Azerbaijan” şirkətinin nümayəndəsi diqqətə çatdırıb ki, “Portrait Now! 2019” Carlsberg Fondunun Frederiksborq Qəsri – Milli Tarix Muzeyində (Danimarka) ənənəvi olaraq keçirdiyi pivəbişirən Y.K.Yakobsen adına beynəlxalq müsabiqədir. 7-ci dəfə təşkil olunan müsabiqənin Şərqi Avropadakı seçim mərhələsinə Azərbaycandan da müəlliflər qatıla bilərlər.

İstedadlı azərbaycanlı rəssamların dəstəklənməsi üçün “Carlsberg Azerbaijan” müsabiqə çərçivəsində “From Waste to Art eko” nominasiyasını təsis etmək qərarına gəlib. Şərqi Avropa ölkələrindən iştirakçılar 31 dekabr 2018-ci il tarixinədək əsərlərini www.portraitnow2019.com saytında qeydiyyatdan keçirməlidir.

Xalq rəssamı Arif Hüseynov belə bir təşəbbüsü müsbət qiymətləndirərək fırça ustalarının müsabiqədə həvəslə iştirak edəcəyini bildirib.

**LALƏ**

## Azərbaycan multikultural dəyərlərə mühüm töhfələr verir

Noyabrın 6-da M.S.Ordubadinin xatirə muzeyində Rusiyada qeyd olunan “Xalqların həmrəyliyi” bayramı (4 noyabr) münasibətilə tədbir keçirilib.

Ölkəmizdəki rus icması nümayəndələrinin iştirak etdiyi tədbir Valeri Limberq adına “İqray qarmon” rus xalq mahnı ansamblı ilə birgə təşkil olunub.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Lalə Abaszadə tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin yaradıcılığı, mədəniyyət ocağının fəaliyyəti haqqında məlumat verib. Direktor Azərbaycanın multikultural dəyərlərə verdiyi töhfələr barədə də danışıb.

Azərbaycanda fəaliyyət göstərən tatar icmasının sədri Elmira İlyazova, Rusiya Mədəniyyət Mərkəzinin direktoru Qalina Manafova və başqaları ölkəmizdə yaşayan azsaylı xalqlara göstərilən diqqət və qayğıdan söz açıblar.

Çıxışlarda vurğulanıb ki, tarix boyu Azərbaycanda yaşayan xalqlar arasında milli münasibətlər ahəngdar olub, etnik zəmində heç bir qarşıdurma baş verməyib.

Daha sonra “İqray qarmon” ansamblının ifasında rus xalq mahnıları səsləndirilib.

**L.AZƏRİ**

## Bilik Fondu Dövlət Bayrağı Günü ilə bağlı tədbirlər keçirib

Bilik Fondu “İl boyu bilik” proqramına uyğun olaraq, 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə bölgələrdə silsilə tədbirlər təşkil edib.

Dövlət Bayrağı Günü ərəfəsində Astara şəhər 1 və 5 nömrəli, Şiyəkəran kənd 2 nömrəli tam orta məktəblərin, yerli Pedaqoji Kollecin müəllim və şagird kollektivi müxtəlif günlərdə rayondakı Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Göygöl rayon Heydər Əliyev Mərkəzində keçirilən dəyirmi masada şəhərin 6 məktəbinin və Texniki təbiət təmayüllü liseyin şagird və müəllim kollektivi iştirak edib.

Daha bir tədbir Naftalan şəhər V.Namazov adına Körpələr evi-uşaq bağçasında gerçəkləşib.

Bayram ərəfəsində Bilik Fondunun “Qardaşlaşmış məktəblər” layihəsinin iştirakçıları olan Şamaxı rayon Sabir qəsəbə tam orta məktəbi və Qobustan şəhər 3 nömrəli tam orta məktəbin şagirdləri arasında “Bayrağımız - qürurumuzdur” mövzusunda keçirilmiş inşa yazı müsabiqəsinin qalibləri də mükafatlandırılıb.

# M.A.P. festivalı “sərhədsiz teatr” konsepsiyasını təqdim edir

*əvvəli səh. 1-də*



Layihənin bədii rəhbəri Kamran Şahmərdanın sözlərinə görə, festivalın ikinci buraxılışı “sərhədsiz teatr” konsepsiyasını gerçəkləşdirən genişmiqyaslı proqramı təqdim edir. O, festivalın incəsənət vasitəsilə sərhədləri silərək, mədəniyyətləri birləşdirərək insanları bir araya gətirdiyini vurğulayıb: “Biz müxtəlif teatr formaları arasında sərhədləri aradan götürməklə, küçə perfomansları, opera və balet, audiovizual səhnə quruluşları və klounada daxil olmaqla, müasir teatrda istifadə edilən geniş üslub palitrasını nümayiş etdirmək istəyirik. Müxtəlifliyi ön plana çəkməklə auditoriyaya azad seçim imkanı verəcəyik”.

Kamran Şahmərdan festival çərçivəsində Aleksandr Vampilovun eyniadlı pyesi əsasında səhnələşdirdiyi “Ördək ovu” tamaşasının təqdim ediləcəyini də diqqətə çatdırıb.

Qeyd olunub ki, İtaliyanın “NoQraviti” Teatrının kollektivi tərəfindən hazırlanmış “Ariya” adlı multidisiplinar tamaşa ilə (6 noyabrda Bakı Konqres Mərkəzində göstərilib – red.) başlayan festivalın proqramına gənc azərbaycanlı dirijor Cavad Tağızadənin rəhbərliyi altında Mariinski Teatrının (Sankt-Peterburq) təqdimatında Yozef Haydnın “Kimsəsiz ada” operasının müasir versiyası, dünya şöhrətli rejissor və xoreoqraf Daniele Finzi Paskanın “La Verità” (“Həqiqət”) akrobatik şousu və Moskvanın ən müasir teatr qurumlarından biri “Qoqol Mərkəzi”nin Nikolay Nekrasovun “Rusiyada yaşamaq kimə yaxşıdır” poeması əsasında hazırlanmış yeni səhnə quruluşu kimi maraqlı tamaşalar daxildir.

Tamaşaları müşayiət edən zəngin ustad dərsləri və mühazirələr proqramı, yeni fəaliyyətə başlayan rejissorlar, aktyorlar, dramaturqlar və digər peşəkarların öz həmkarları ilə görüşməyə və fikir mübadiləsi aparmağa imkan verəcək. Bu sıraya rusiyalı dramaturq-ssenarist Yuliya Tupikina tərəfindən “Pyes necə yazılır?” adlı ustad dərsi, rejissor, aktyor və musiqiçi Aleksandr Dzyuba tərəfindən birgünlük intensiv ustad dərsi, “Çiten” teatrının rejissoru Motoi Miuranın yapon teatrı haqqında mühazirəsi, teatrşünas və tənqidçi Marina Davıdova ilə müasir teatr quruluşlarının təkamülündən bəhs edən müzakirə daxildir.

“Merlin” Kukla Teatrının təsisçiləri Dimitris Stamu və Demi Papada ən gənc tamaşaçılara öz işıq və kölgə yaradıcılıqları vasitəsilə “işıq ilə oyun” sənətini təqdim edəcəklər.

Festivala dəstək verən “Bakcell” şirkətinin baş icraçı direktoru Nikolay Bekers deyib: “M.A.P. festivalı Azərbaycanda incəsənətin inkişafına, habelə, bütün dünyada Azərbaycan incəsənətinin tanınmasına əhəmiyyətli töhfə verir. Bu, musiqi, incəsənət və perfomans ilə məşğul olan insanların öz əsərlərini beynəlxalq səviyyəli peşəkarlarla birgə nümayiş etdirməsi üçün unikal bir imkandır. Milli telekommunikasiya operatoru olan “Bakcell” Azərbaycanda musiqi və incəsənətin inkişafına töhfə verən layihələrin dəstəklənməsi öhdəliyinə daim sadiq qalır”.

# ASSİTEJ mədəni müxtəlifliyi bir araya gətirir



Xəbər verdiyimiz kimi, V Bakı Beynəlxalq Teatr Konfransının proqramına tanınmış teatr xadimlərinin iştirakı ilə ustad dərsləri və seminarlar da daxil idi.

Noyabrın 7-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında “ASSİTEJ dünyasında yeniliklər” adlı seminar keçirildi. Seminarda Beynəlxalq Uşaq və Gənclər Teatrları Assosiasiyasının (ASSİTEJ) prezidenti İvet Hardinin (Cənubi Afrika Respublikası) məruzəsi dinlənildi.

Məruzədən öncə Mədəniyyət Nazirliyi Teatr sektorunun müdiri, Bakı Beynəlxalq Teatr Konfransının icraçı katibi Şaiq Səfərov çıxış edərək ASSİTEJ-in fəaliyyəti və seminarın məqsədi haqqında məlumat verdi. Bildirdi ki, sovetlər dövründə Azərbaycanın heç bir beynəlxalq teatr qurumu ilə əməkdaşlıq imkanı olmayıb. Ölkəmiz müstəqillik qazandıqdan sonra teatrın inkişafı ilə bağlı ilk dövlət proqramında beynəlxalq qurumlarla əməkdaşlıq və üzvlük məsələsi ön plana çəkildi. Bu gün Azərbaycan teatrları səhnə sənətinin müxtəlif sahələrini təmsil edən beynəlxalq qurumlara üzv olaraq sıx əməkdaşlıq edirlər. Bütün bunlar teatrların inkişafına və təcrübə mübadiləsinə, Azərbaycan teatrının dünyada tanıdılmasına xidmət edir.

İvet Hardi Bakıda beşinci dəfə keçirilən beynəlxalq teatr konfransında iştirakından razılığını bildirdi, ASSİTEJ-in tarixi, gördüyü işlər, beynəlxalq qurumlarla birgə layihələri barədə danışdı.

Bildirildi ki, 1965-ci ildə yaradılan, uşaq və gənclər teatrlarının mütəxəssisləri üçün beynəlxalq ittifaq rolunu oynayan qurumun dünya üzrə 104 milli mərkəzi fəaliyyət göstərir. Milli, regional və beynəlxalq proqramlar, konqres, konfrans, festival, treninq, ustad dərsləri və digər tədbirlərin həyata keçirilməsində müstəsna xidmətləri olan ASSİTEJ teatr mütəxəssisləri üçün ideya və mədəni yaradıcılıq mübadilələrini asanlaşdırır.

2011-ci ildə ASSİTEJ-in İcraiyyə Komitəsinin Fransada keçirilən toplantısında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının təşkilata üzv seçildiyini vurğulayan xanım Hardi Azərbaycanla əlaqələri daha da inkişaf etdirmək istədiklərini dedi. O, təşkilatın son illərdə həyata keçirdiyi layihələr və yeni teatr tendensiyalarından danışaraq dünyanın müxtəlif ölkələrində təşkil olunan festivalların əhatə dairəsi və mövzularından söz açdı. Bildirildi ki, ASSİTEJ tərəfindən keçirilən bu layihə və festivallar müxtəlif xalqları bir araya gətirir, dünya üzrə teatr mütəxəssislərinin sıx əməkdaşlığına şərait yaradır.

Diqqətə çatdırıldı ki, əsas qərargahı İtaliyada yerləşən təşkilat dünyanın hər bir yerində fəaliyyət göstərən uşaq və gənclər teatrları ilə əlaqə yaratmağa açıqdır: “Qurumun Dünya konqresi bu il Çində gerçəkləşəcək. 2019-cu ildə Norveçdə toplantımız təşkil olunacaq. Amalımız mədəni müxtəlifliyi bir araya gətirməkdir”. İvet Hardi təşkilatın mədəni mübadilə proqramlarında Azərbaycandan da nümayəndənin iştirak etməsinin faydalı olacağını bildirdi: “Çünki bu tədbirlər milli mərkəzin fəaliyyəti ilə tanışlıqla yanaşı, çoxsaylı üzv ölkələrlə əməkdaşlıq baxımından da Azərbaycan teatrlarına yeni imkanlar yaratmış olacaq”.

ASSİTEJ-in rəhbəri təşkilatın fəaliyyətindəki yeniliklər və müasir teatr yanaşmaları haqqında da söz açdı.

Məruzədən sonra seminar müzakirələrlə davam etdi.

**LALƏ**

# Qusar teatrı “Hərənin öz ulduzu” ilə Xaçmaza gedib



Noyabrın 7-də Xaçmaz Heydər Əliyev Mərkəzinin akt zalında Qusar Dövlət Ləzgi Dram Teatrı tərəfindən İsi Məlikzadənin əsəri əsasında hazırlanmış “Hərənin öz ulduzu” adlı tamaşa nümayiş etdirilib.

Tamaşanın quruluşçu rejissoru Laləzar Hüseynova, quruluşçu rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşovdur.

Nümayişdən öncə tamaşaçılar mərkəzin foyesində təşkil edilmiş sərgi ilə tanış olublar.

# Yeni teatr üsulu?
## Hərəkət sözdən əvvəl var olub...

Bakı Beynəlxalq Teatr Konfransı çərçivəsində müxtəlif ölkələrdən gəlmiş sənət adamlarının ustad dərsləri xoş ənənəyə çevrilib. Bu dəfə həmin məqsədlə dəvət olunanlar arasında beynəlxalq teatr cameəsinin reformator kimi qəbul etdiyi, teatr bilikləri tədrisində xüsusi metodun (”Səlimov metodu”) müəllifi, amma vətənində geniş tanınmayan Emil Səlimov da vardı. Budəfəki konfrans fürsət verdi ki, məşhur soydaşımızı biz də yaxından tanıyaq.



Uzun illərdən bəri Fransada yaşayıb çalışan rejissor, prodüser, pedaqoq, dramaturq Emil Səlimov noyabrın 7-də Azərbaycan Dövlət Musiqili Teatrının aktyorlarına ustad dərsi verdi.

Ustad dərsindən öncə çıxış edən teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev “Səlimov metodu. Korpus hərəkətdə” təlim kursu barədə qısa məlumat verdi və müəllifi təqdim etdi. Ustad dərsində teatrın həm balet truppası, həm xor artistləri, həm də solistlər iştirak edirdilər.

Emil Səlimov öz metodu barədə məlumat verərək onu “hərəkətli teatr” kimi səciyyələndirdi. O, dərsə başlamazdan əvvəl iştirakçılarla şərt kəsdi: “Mənim verdiyim tapşırığı yerinə yetirəcəksiniz. Təklif etdiyim situasiyaya reaksiyanı oynayacaqsınız. Mənə bunu niyə belə edirik kimi suallar verməyəcəksiniz. Mən də sizinlə astadan, demək olar ki, pıçıltı ilə danışacağam ki, dərs boyu sizin emosional gərginliyiniz azalmasın, həm də fikriniz yalnız məndə olsun”.

Beləcə, E.Səlimovun “bu tamaşanı sonsuzluğadək oynamaq olar” kimi təklif etdiyi improvizə tamaşa başlayır. Gənclərə “meşəyə gəzməyə çıxmış bir dəstə dostun macəraları”nı oynamaq təklif edilib. Qızlardan biri müəllimin tapşırığı ilə yol üstündə “kirpi” görür. Dostlar kirpiyə heyranlıqla tamaşa edib başlarını sola çevirəndə ağacdakı dələyə gözləri sataşır. İnsana xətər toxundurmayacaq sevimli meşə heyvanlarından sonra dəstə çətinliyə düşür. Onlara hücum edən canavarlar qızlardan birini parçalayır, dəstə yırtıcı quşlarla mübarizə aparmalı, dərəyə yıxılmış dostlarına kömək etməlidir, hətta mifik məxluqlarla – əjdahalarla qarşılaşır. Canavarların parçaladığı qızın başına gələn əhvalatı saymasaq, dostlar əjdahaları da məhv edib bütün çətinlikləri dəf edə bilirlər.

Bir neçə cümlədə improvizə tamaşanın hər bir detalı dəfələrlə incələnir, Emil Səlimov bəyənənədək təkrarlanır. Onlar xoşbəxtliyi, qorxunu, kədəri, yuxudan hövlnak oyanmağı minimum söz, maksimum hərəkətlə çatdırmalıdırlar. Təbii ki, çox ciddi və tələbkar pedaqoqun gözündən heç nə yayınmır.

“...Uşaqlar, qızın qollarından çox bərk dartmayın. Siz onu döşəmədə sürüyəndə hərəkətiniz onu incidə bilər”...

“Canavarlar, niyə donub qaldınız? Tez roldan çıxın. Siz artıq kütləvi səhnənin iştirakçısısınız”.

“Mənə vokal ağı yox, plastik ağı lazımdır. Çiyinlərinizi silkələməklə, başınızı yırğalayıb üzünüzə kədər ifadəsi verməklə rəfiqənizin itkisindən təsirləndiyinizi ifadə edin”.

“Xanım qız, belə uzanmaq olmaz. Siz günəş vannası qəbul etmirsiniz, dərəyə yıxılmısınız!”.

Beləcə, on dəqiqəlik fasilə ilə gənclik coşqusu, öyrətmək yanğısı hopmuş təxminən iki saat sürən dərs başa çatır. Elə dərsarası bir neçə dəfə cavanlardan yorulub-yorulmadığını soruşan Emil Səlimov sonda Musiqili teatrın dərsdə iştirak edən kollektivinə dözümə, onun göstərişlərini həvəslə yerinə yetirdiyinə görə təşəkkür edir. Onlar da məmnunluqlarını alqışla bildirirlər. Teatrın direktoru Əliqismət Lalayev və Emil Səlimov bu ilk təcrübənin hər iki tərəf üçün gələcək əməkdaşlıq baxımından faydalı olacağını ifadə edirlər.

Hər kəs yerini alandan sonra ustad kimin sualı var deyə, həm iştirakçılara, həm də ustad dərsini seyrçi qismində seyr edən hər kəsə üzünü tutur. Təbii ki, bu dəfə də hər kəsdən çox jurnalistlərin sualı var. Vaxt məhdudluğuna baxmayaraq, fransalı məşhur soydaşımız kimsənin sualını cavabsız qoymur, amma bu barədə növbəti yazıda.

**G.MİRMƏMMƏD**

# “Dünyada teatrın problemləri də, ona olan sevgi də eynidir”
## V Bakı Beynəlxalq Teatr Konfransı barədə təəssüratlar

BAKU INTERNATIONAL THEATRE CONFERENCE

”XXI əsrin teatr fəlsəfəsi: mövcudluq konsepsiyası” mövzusunda V Bakı Beynəlxalq Teatr Konfransına 40-dan çox ölkədən, eləcə də beynəlxalq yaradıcılıq təşkilatlarından 120-dən çox nümayəndə qatılmışdı. İki gün ərzində maraqlı müzakirələrlə yadda qalan konfransda qonaqların bəzilərinin təəssüratlarını öyrəndik.

**Məhəmməd əl-Əfxam** (Beynəlxalq Teatr İnstitutunun prezidenti):

- Bakı konfransı mədəniyyətlər arasında körpüdür. Bu konfrans çərçivəsində millətlər öz fərqliliklərini unudub sənət naminə bir araya gəlir. Bizim təşkilat da buna hər zaman önəm verir, burada səslənən fikirləri diqqətdə saxlayır, eyni zamanda teatr sahəsində həm ayrı-ayrı ölkələrdə, həm də bütün dünyada baş verən proseslərə münasibətini bildirir, problemlərin həll olunması yolunda öz səylərini əsirgəmir.

**İvet Hardi** (ASSİTEJ-in prezidenti):

- Bu konfransa bir neçə dəfə qatılmışam. Hər dəfə yenilənən mövzular, aktual problemlərin önə çıxarılması yaxşı haldır. Sessiyalarda dinləyicilərin fəal iştirakını da xüsusi qeyd etmək istərdim. Bu gün teatr sənəti necə tədris olunur, dünyadakı bütün müəllimlərin düşüncələri eynidirmi? Bu kimi suallar və teatrın yaşaması, sabahı üçün düşünülən yeni metod və axtarışlar onu sübut edir ki, bu sənətin bütün dünyada problemləri də, ona olan sevgi də eynidir. Ümidvaram ki, konfrans müxtəlif ölkələrin teatrşünasları tərəfindən müasir teatrın problemlərinin müzakirə edilməsinə və həlli yollarının tapılmasına imkan yaradacaq.

**Katarina Klançnik-Kokutar** (Beynəlxalq Kukla Teatrları İttifaqı – UNİMA-nın Kommunikasiya və ictimai əlaqələr üzrə komissiyasının sədri):

- Bakı Beynəlxalq Teatr Konfransında müasir teatrın aktual problemləri müzakirə edilir. Yüksək səviyyədə təşkil edilən bu konfrans dünyanın müxtəlif ölkələrindən teatr mütəxəssislərinin təcrübə mübadiləsi aparması baxımından böyük əhəmiyyət daşıyır. Bu nüfuzlu tədbir teatr xadimləri ilə ünsiyyətdə olmaq, fikir mübadiləsi aparmaq, teatr sahəsində mövcud olan problemləri müzakirə etmək və gələcəkdə layihələr həyat keçirmək baxımdan hər bir iştirakçıya gözəl fürsətlər yaradır.

**Qalina Verbitskaya** (Rusiya):

- Mən konfransda klassik əsərlərin müasir səhnə həlli ilə bağlı fikirlərimi bölüşəcəyəm. İnanıram ki, klassik tamaşaların bu gün səhnədə daha fərqli təqdimata ehtiyacı var. Yüksək səviyyədə təşkil edilən bu konfrans çoxsaylı ölkələrdən teatr mütəxəssislərinin təcrübə mübadiləsi üçün gözəl imkandır.

**Qriqori Zaslavski** (Rusiya Teatr Sənəti İnstitutunun rektoru):

- Azərbaycan özünəməxsus teatr ənənələrinə malikdir. Ölkəniz bu gün beynəlxalq səviyyədə bu sahədə söz deməyə, dünya teatrlarını bir araya gətirərək “XXI əsrin teatr fəlsəfəsi: mövcudluq konsepsiyası” mövzusunda müzakirələr aparmağa qadirdir. Belə tədbirlər teatr mühitində qarşılıqlı əlaqələrin inkişafına və möhkəmlənməsinə kömək edir. Konfrans nəticəsində dünyanın dörd bir yanından gələn teatr mütəxəssisləri, rejissorlar, aktyorlar öz düşüncə və təcrübələrini nümayiş etdirmək, mədəni mübadilə aparmaq imkanı əldə edirlər.

**Atabak Nadiri** (Tehran Dram Mərkəzinin şöbə müdiri):

- Artıq ikinci dəfədir bu konfransda iştirak edirəm. Yüksək səviyyədə təşkil edilən bu tədbir teatr xadimləri ilə ünsiyyətdə olmaq, fikir və təcrübə mübadiləsi aparmaq, teatr sahəsində mövcud olan problemləri müzakirə etmək və gələcəkdə birgə işlər, layihələr həyat keçirmək baxımdan əhəmiyyətli tədbirdir. İran İslam Respublikası ilə Azərbaycan arasında mədəni əlaqələr genişdir, hər iki ölkədə qarşılıqlı mədəniyyət günləri çərçivəsində teatr tamaşaları göstərilir və bu istiqamətdə işlər gələcəkdə də davam etdiriləcək.

**Lalə AZƏRİ**

№82 (1572)
9 noyabr 2018
www.medeniyyet.az

# “Ana yurdum, hər daşına üz qoyum”

## Məmməd Arazın 85 illiyinə həsr edilmiş ədəbi-musiqili gecə

Noyabrın 6-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq şairi Məmməd Arazın anadan olmasının 85 illiyinə həsr edilmiş tədbir keçirilib.



Filarmoniya və “Mədəniyyət” kanalının birgə layihəsi, Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan tədbirdə Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi, Xalq şairi Nəriman Həsənzadə, Milli Məclisin deputatı, yazıçı Aqil Abbas və başqaları unudulmaz şairin həyat və yaradıcılığından söz açıblar.

Qeyd olunub ki, mənalı, şərəfli, Vətənə və sənətə həsr olunmuş ömür yaşamış Məmməd Araz vətəndaş qeyrətli ədəbiyyat nəhəngidir. Məmməd Araz yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Onun “Vətən mənə oğul desə”, “Ata ocağı”, “Ana yurdum, hər daşına üz qoyum” və s. şeirləri vətən mövzusunda ən yaxşı əsərlər kimi dillər əzbəridir. Poeziyamızda Azərbaycan mövzusunda çox yazılıb. Azərbaycana çoxlu şeirlər ithaf olunub. Amma Məmməd Arazın “Azərbaycan – dünyam mənim” şeirinin bənzəri yaradılmayıb. Şeir yaradıcılığında olduğu kimi, poemaları ilə də Məmməd Araz təkrarsızdır. Onun “Üç oğul anası”, “Araz axır”, “Mən də insan oldum”, “Paslı qılınc”, “Əsgər qəbri”, “Atamın kitabı” poemaları hər şeydən əvvəl insan mənəviyyatının mürəkkəbliyi, tarix və müasirlik, milli tale və tarixi yaddaşın bərpası kimi fundamental məsələlərə həsr olunub.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyev poeziyamızın istedadlı nümayəndəsi Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə daim yüksək qiymət verib. Prezident İlham Əliyev görkəmli sənətkarın xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar Azərbaycan ədəbiyyatının, bütövlükdə yaradıcı ziyalıların böyük himayədarı, ulu öndər Heydər Əliyev ənənələrinin uğurlu davamı kimi yüksək dəyərə malikdir.

Qeyd edilib ki, son illər ölkəmizdə “Məmməd Araz poeziya günü” çərçivəsində şeir müsabiqəsi keçirilir. Bu il 3-cü dəfə təşkil olunan müsabiqəyə 30 rayondan 50-dək müəllif 100-dən çox şeir göndərib. Sonda qaliblər mükafatlandırılıb.

Gecədə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının instrumental heyəti (bədii rəhbər - Xalq artisti Ağaverdi Paşayev, musiqi rəhbəri - Etibar Qasımbəyli) çıxış edib.

Konsertdə Məmməd Arazın sözlərinə yazılmış mahnılar səslənib.

# Bayrağımızın ucaldığı, müstəqilliyimizin tanındığı gün – 9 Noyabr

*əvvəli səh. 1-də*

Azərbaycanın istiqlalını birinci olaraq (4 iyun 1918-ci il) Türkiyə (Osmanlı dövləti) tanımış, türk ordusu Cümhuriyyətin köməyinə gəlmişdi. Bu kömək sayəsində Cümhuriyyət hakimiyyəti Azərbaycanın bütün ərazisində bərqərar oldu, Bakı erməni-daşnak ünsürlərindən təmizləndi.

Ağ ay-ulduzlu qırmızı bayraq dövlətləşmə və Cümhuriyyətə keçid mərhələsində bizim müvəqqəti dövlət rəmzimiz idi. Dövlətçilik institutlarını qurmağa başlayan hökumət dörd ay sonra bayraq haqqında ikinci qərarı qəbul etdi.

“Milli bayraq haqqında Azərbaycan hökuməti qərarları dəftərindən 9 noyabr 1918-ci il tarixli çıxarış”dan:

1. Azərbaycan Cümhuriyyətinin dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir.
2. Azərbaycan Cümhuriyyətinin dövlət bayrağı eni və uzunluğu bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır.

Cümhuriyyətimiz yeni bayrağını qəbul etsə də, onun təsvirində qardaş Türkiyə bayrağının rəngini – qırmızını saxlamışdı. Tale elə gətirdi ki, 1920-ci ildə Cümhuriyyət süquta uğradıqdan sonra bayrağımız dəyişdirildi, amma qırmızı rəng yenə qaldı. Hərçənd bu qırmızı o qırmızıdan deyildi. Amma yenə də, bu, tarixin bir naxışı idi.

Dövlət müstəqilliyimiz 70 il sonra bərpa olundu. Cümhuriyyətin üçrəngli bayrağı 1988-1989-cu illərdə Azərbaycan xalqının milli özünüdərk və Qarabağ davası üçün çıxdığı meydanda dalğalandı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçən tarixi iclasında üçrəngli bayraq muxtar respublikanın rəmzi olaraq qəbul olundu. Azərbaycan Ali Sovetinə bayraqla bağlı müraciət edildi.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağı Azərbaycan Respublikasının



Dövlət bayrağı kimi təsdiqləyən qanun qəbul etdi. Bu, sovet tarixi və rəmzlərindən imtina, milli dövlətçiliyin bərpasına doğru addım idi.

* * *

Azərbaycan bu əlamətdar tarixə 70 il mürəkkəb yol keçərək gəlmişdi. Bu zaman kəsiyində Azərbaycanın Türkiyə ilə 1918-ci ildə bayraqlaşmış qardaşlıq tarixi itməmişdi, milli yaddaşda yaşayırdı. Təsadüfi deyildi ki, Azərbaycanın ikinci dəfə müstəqilliyini də öncə Türkiyə Cümhuriyyəti tanıdı.

1991-ci il noyabrın 9-da Türkiyə hökumətinin (baş nazir Məsud Yılmaz) iclasında bu barədə qərar qəbul olundu. O vaxt dövlət müstəqilliyimizin bərpasından (18 oktyabr) cəmi 22 gün keçmişdi və Azərbaycan xalqı, təbii ki, bu müstəqilliyə ilk dəstəyin Türkiyədən gələcəyini gözləyirdi. Beləcə, Azərbaycanın müstəqillik faktı beynəlxalq müstəviyə çıxdı.

Türkiyənin hələ SSRİ-nin de-yure mövcud olduğu bir şəraitdə Azərbaycanın dövlət müstəqilliyini tanınması o dövr üçün cəsarətli addım idi. Təkcə ona görə yox ki, SSRİ formal şəkildə mövcud idi və Moskva (SSRİ XİN) Ankaranın bu niyyətinə etiraz notası vermişdi. Həm də ona görə ki, Türkiyənin təşəbbüsü onun NATO-dakı əsas tərəfdaşı olan ABŞ tərəfindən də təqdir edilməmişdi.

Hətta ABŞ-ın Ankaradakı böyükelçisi Türkiyə rəhbərliyinə müraciət edərək onu SSRİ respublikalarını tanımaqda tələsməməyə çağırmışdı. O vaxt Vaşinqton Moskva ilə SSRİ-nin nüvə arsenalının aqibəti ilə bağlı gərgin danışıqlar aparırdı və NATO üzvü Türkiyənin “tələsik” addımı bu müzakirələr üçün arzuolunmaz fon idi.

Lakin buna rəğmən Türkiyə öz qardaşlıq missiyasını yerinə yetirdi. Bununla da MDB məkanında (Baltikyanı ölkələri çıxmaqla) birinci olaraq məhz Azərbaycan xarici dövlət tərəfindən tanındı.

Türkiyə sonrakı müddətdə də Azərbaycanla münasibətlərdə birinci olmaq şansını heç bir ölkəyə güzəştə getmədi. 1992-ci il yanvarın 14-də Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik əlaqələrin qurulmasına dair protokol imzalandı. Bu, müstəqil Azərbaycanın diplomatik münasibətlərə dair imza atdığı ilk sənəd idi. Türkiyə isə Azərbaycanda səfirlik açan ilk dövlət oldu.

Türkiyə müxtəlif beynəlxalq təşkilatlarda da Azərbaycana hər zaman birinci əl uzadıb. 1992-ci ilin aprelində Azərbaycanın BMT-dəki (Nyu-York) diplomatik nümayəndəliyi də ilk dövrdə Türkiyənin daimi nümayəndəliyinin ofisində fəaliyyət göstərmişdi. Həmçinin Azərbaycanın xaricdəki ilk səfirliyi də 1992-ci ilin avqustunda Türkiyənin paytaxtı Ankarada açılmışdı.

Beləcə, iki qardaş arasında dövlətlərarası münasibətlərin 27-ci ili tamamlanmaq üzrədir. Bu illərdə ölkələrimizin çoxsahəli əməkdaşlığı böyük inkişaf yolu keçib, yüzlərlə müqavilə, protokol və sazişlə möhkəmlənib, bütün region üçün taleyüklü olan nəhəng, transmilli layihələrlə güclənib, ən əsası, zamanın sınağından çıxaraq bərkiyib. Bu gün ölkələrimiz bütün məsələlərdə birlikdə hərəkət edir, bayraqlarımız yanaşı, gücümüz də birliyimizdədir. Güclü Türkiyə güclü Azərbaycan, güclü Azərbaycan da güclü Türkiyə deməkdir.

**Vüqar ƏLİYEV**

# Əsl xəlqi XALQ ARTİSTİ

## Bütün zamanların fenomeni, ayrıca bir sənət odası, sənətkarlıq “ada”sı – Əliağa Ağayev...

Dünyaya gəlimindən 105 (1913), gedimindən 35 (1983) il keçən bu anadagəlmə aktyor hər dəfə (!) səhnəyə çıxanda sürəkli “çəpik”lərlə (öz sözüdür) qarşılanıb, gurultulu alqışlarla yola salınıb. Belə sənətkar haqda danışmaq asan, yazmaq isə çətin. Nədən ki, nitqdə bütün hiss-həyəcanları vermək olur, yazı-pozuda isə yox.



Amma elə məqamlar varki...

**Məsələn;**

yazılmasa, bu sənətkarın milli teatr tariximizdə heç kimsəyə nəsib olmayan duzlu danışıq tərzi, analoqsuz səs tembri, uğundurucu jestləri, “şeytan”i ovsunu statistik tamaşaçını aldada da bilərki, bu adam ali təhsil görməyib.

Bəli, yüz ilə yaxındı bütün Azərbaycanı qəşş etdirən bu aktyorun gəncliyəqədəri böyüklükdə yaradıb-yaşadığı rollarla tərs mütənasib keçib; uşaqkən ata-anasını itirib, 7-ci sinfi (özü də 17 yaşında!) bitirərək, gəmi təmiri zavodunda çilingərliyə başlayıb, elə orada dram dərnəyinə yazılıb və sənətin “sərrafgözlülər”i tərəfindən Gənc Tamaşaçılar Teatrına dəvət edilib. İlk rolu?..

Bu (və şah obrazı Məşədi İbad) barədə 60 illiyindəki müsahibəsindən:

“- Hərdən ilk rolunuzu da xatırlayırsızmı?

- Əlbəttə! Heç onu – “Kapitan Qrantın uşaqları”ndakı “Dik”i unutmaq olar? 1936-cı ilin o yaz günü sanki dünyanı mənə peşkəşləmişdilər. Sevincimin həddi-hüdudu yox idi. Elə bilirdim, küçəyə çıxanda hamı məni barmaqla göstərəcək!..

- Bəs “O olmasın, bu olsun”dan sonra?..

- O heç dəə! Hüseyn Seyidzadə o filmdə gözəl ansambl yaratmışdı. Çox da tələbkar idi. Rüstəm bəyin evindəki davada iki-üç vedrə (Qoçu Əsgərin alnına çırpılası) yumurta işləndi. Fasilədə “bu qədər yumurtanı çığırtma edib, iki-üç gün nahar edə bilərdik” kimi zarafatlar edənlərə isə belə bir “zarafat” qaytardı: “Amma tamaşaçılar ac qala bilərdi!..”

- Bəs, o qədər “bolluq”da hambala “bir abbası”nı qıymazlığınız?

- Bilirsiz, qardaş oğlu, o vaxt mən tacir adamdım, qəpik-quruşla işim yox idi...”

**Bu adam –**

həm də Allah adamı, insaf insanı, “kristal”lıq nümunəsi...

Qızı Gülçin:

“1918-ci ildə ermənilər Tiflis azərbaycanlılarını qırmağa başlayanda babam onların dilində danışa bildiyi üçün sağ qalıb və dərhal Bakıya köçüblər. Day xəbərləri yoxmuş ki, burda vəziyyət ordakından da gərginmiş. Hər halda “öz millətinin içində olmaq da, ölmək də ordakından rahatdı” deyirmiş.

Atam heç vaxt – nə səhnədə, nə həyatda, nə ev-eşiyində “artistliyə” yol vermədi...

Xalq onu elə çox istəyirdi ki! Xüsusilə, “O olmasın, bu olsun” filmi ekranlara çıxandan sonra. Bir də görürdün kimsə küçədə qabağını kəsdi və... biz iki-üç saat bazarlıq edib qayıdanda görərdik ətrafına bir “kolxoz” adam yığışıb...

Atamın oynadığı “Hacı Qara” tamaşasına Mircəfər Bağırov da gəlib baxıb və tamaşadan sonra yanına çağırtdırıb. 1937-də ortancıl əmimi tutub aparıbmışlar deyə, atam ev-eşiyilə vidalaşıb gedir. Amma sən demə, Bağırov onu gözəl ifasına görə təbrikə çağırtdırıbmış. Fəxri adının olub-olmaması ilə də maraqlanır. Bir müddət sonra (1943) “Əməkdar artist”, 1954-də isə “Xalq artisti” (GTT-də ilk) adı verdilər. “SSRİ Xalq artisti” məsələsi gələndəsə bildirdilər ki, bununçün partiyaya üzv olmalısan. Amma atam bu cazibəyə getmədi. Biz razılaşması haqda təkid edəndəsə, dedi, bir xalqın artisti olmaq kifayətdir, mən onsuz da xalqın artistiyəm.

Həqiqətən də belə idi; onu hər yerdə, bütün təbəqələrdən olan insanlar çox istəyirdilər, müttəfiq respublikalarda keçirilən bütün mötəbər tədbirlərin qapıları onun üzünə açıq idi.

Qardaşımla mənə bircə qadağası vardı ki, incəsənət sahəsinə getməyək. Bu səbəbdən də, qardaşım Vaqif Teatr İnstitutunun (indiki ADMİU) Rejissorluq fakültəsində oxuması “sirr”ini diplomu alanda açdı. Atamsa, gülümsünərək: “Sən bunu məndən dörd il məxfi saxladın, mənsə bundan xəbər tutduğumu səndən ömrüm boyu gizli saxlayacağam, - dedi. - Yaxşı, day keçib, xeyirli olsun...”

Təhsil məsələmizdə çox ciddi idi. Deyərdi, yalnız özünüzə güvənin, fikirləşməyin ki, atamız bizə qiymət yazdırar.

İşə-gücə ictimai nəqliyyatla gedib-gəlirdi. Amma başqalarına çox kömək eləyib.”

Oğlu Vaqif:

“Atam bir gün trolleybusla gedəndə görür ki, cavan bir oğlanın qanı “yanında oturduğu zənci tələbədən də qaradı”. Soruşur ki, “adə, noolub”, oğlan dillənmir. Dübarə sual edir: “Qoçaq, bəlkə gəmin batıb”, deyir, yox, Əlağa əmi, mən atamın altı ketmənçi qızının yeganə oxumaq istəyən qardaşıyam, amma bir balım çatmadı. Atam deyir, onlara bal lazımdı, tapaq aparaq də.

Nəysə, gedirlər instituta, atam qəbul komissiyası üzvlərindən onun ailə vəziyyətini və güclü oxumaq həvəsini nəzərə almalarını xahiş edir və iş yoluna qoyulur. Günlərin bir günü həmin oğlan rayondan bizə nə gətirsə yaxşıdır? Bəli, bəli, həqiqi bal! Bəs atam neyləsə yaxşıdır? Onu səhər süfrəsinə əyləşdirdi, sonra gətirdiyinə işarəylə: “Bunu isə apar yataqxanaya, tələbə yoldaşlarınla qış uzunu nuş eləyin. İmkanın olsa, belə bir “tost” da irad et ki, Əliağa əmi yaxşılığı yaxşılığa xırdalayanlardan dögül”...

Xalq artisti Əliabbas Qədirov:

“Bizim “Əliağa əmi”miz aldığımız qonorardan “bir abbası”nı da “ora-bura” xərcləməyə qoymazdı. Deyərdi, hamısını aparın verin ailənizə. İşdir, iştahanızdan “birşey-mirşey” keçsə, gəlin mənə ərz edin ki, pəs, məşədi, bir filan-kalan manat ver, gedək “araq-çaxır” bəyin atasını yandıraq...”

Bu məşhur teatr-kino “Məşədi İbad”ı həm də həyati Məşədi idi.

Xanımı Cəvahir Ağayevanın köhnə müsahibələrindən fraqmentlər:

“O, “Azdrama”ya Şıxəli Qurbanovun təkidilə (“Azərbaycanın baş səhnəsi Mirzəağa Əliyevsiz qalıb, məsləhətdir ki, Ə.Ağayev oraya getsin”) keçdi. Gənc Tamaşaçılar Teatrının ilk aktyoru Süleyman Ələsgərov (məşhur “Cəbiş müəllim”) isə onu bu sözlərlə yola saldı: “Əliağa, sən bu teatrın qapısına qıfıl vurub gedirsən, bundan sonra buranın tamaşaçıları da “Azdrama”ya gedəcək...”

Bir vaxtlar aktrisa olmuş mənciyəz sonralar teatrlara tamaşaçı kimi gedərdim. Əliağa öz səhnə çıxışlarına həmişə hələ pərdə arxasında ikən başlar, tamaşaçılarsa bu səsi əlbəəl tanıyıb, əl çalmağa başlardılar. Kino rollarında da seçilirdi. “Məşədi İbad”da demişdilər “keçəlpapaq” qoy, o isə hər çəkilişə şəvə saçlarını qırxdırıb çıxırdı.

Hələ “Evlənmək istəyirəm”dəki “bomba rabatay” dediyi (dedirtdiyi) qarodovoy Kərbalayı Zal! Deyirdi, bizim rejissorlar klassiklərimizin bağ-bağatında nə qədər çox gəzişsələr, o qədər əla güllər vurarlar! Kərbalayı Zal rolu ona tapşırılanda, uşaq kimi sevindi! Bərk xəstə olsa da, onu evdə saxlaya bilmirdik. Nə danışırsız, - deyirdi, - mən Kərbalayı Zalın yolunu neçə illərdi gözləyirəm. İndi deyirsiz, ona bivəfa çıxım?!”

İşləməkdən yorulmurdu; o sayaq dəmir hafizəsi ola-ola, vaxtbivaxt mətnləri təkrarlayırdı. İmprovizələri isə hamıya bəlli!

Bir gün Adil İsgəndərov onu çağırtdırıb, deyir, Əliağa, istəyirəm bu filmdəki (“Əhməd haradadır”) “xəzinədar” epizodunu sən yaradasan. Bircə günlük işdir...”

Sonralar Adil müəllim danışırmış ki, bir də gördüm, Əliağa – dazbaş, yekəbığ və çiynipencəkli halda gəlir. Soruşdum ki, qadam, bu nədir belə, dedi ki, səbir elə, görəcəksən. Birdən qayıtdı ki, bir erkək toğlu gətirsinlər. Bir çoban bu tapşırığı çox xoşluqla yerinə yetirdi. Əliağa üzünü kino işçilərinə tutub: “İç-ciyəri mənim, qalanı sizin” – dedi, əla bişirilmiş xörəyini götürüb girdi kassaya və mənə üz tutub, dedi, Adil müəllim, çəkə bilərsən.

Mat-məəttəl qaldım. Mən beş-on dəqiqəlik iş bilirdim bunu. Amma Əliağa əməlli-başlı dəstgah açmışdı; bu kiçicik “xəzinədar” rolundan gözəl bir sənət xəzinəsi yaratdı və bu personaj, yaddaşlarda filmin əsas obrazları səviyyəsində qaldı, Moskvada filmin “təhvil”i zamanı kino mütəxəssisləri bu obrazı məxsusi vurğuladılar”.

Kinoşünas Aydın Kazımzadənin “Əliağa Ağayev xatırlamaları” içərisində hamının (hərənin bir cür) keçirdiyi bir “nostalji” də var: “Ə.Ağayevin oğlu Vaqiflə məktəb partadaşı olmuşuq. Ovaxtlar müəllimlər şagirdlərlə bağlı hər hansı problemçün valideynləri məktəbə çağırardı. Vaqifə görə həmişə atası gələrdi. Təsəvvür edin; bu məşhur aktyor qapını açıb, “icazə olar?” - deyə sinif otağına daxil olur! Biz için-için uğunar və o (özünəməxsus ləngər və mimikalarının hər biri bir teatr tamaşası və ya kino obrazını xatırladaraq) keçib arxa partada oturana qədər özümüzü güclə ələ alardıq. Bəli, Əliağa müəllimin “həyati” obrazları da çox maraqlı idi...”

**Və...**

Həkimlər ömrünün son on ilini xəstəliklə də mübarizə aparmış bu azmana “sənə işləmək olmaz” deyirmiş, o isə: “Mən işləməsəm, ölərəm!”.

Və... siz Allah, bütün ömrü uzunu xalqı “gülməkdən öldürmüş” bu adamın ölməyinə baxın: dostları ilə deyə-gülə keçirdiyi məclisdə “...elə ürəkdən güldü ki, ürək damarlarından biri qırıldı və...”

Sonda, bu əfsanəvi sənətkarın gənc dostlarından Xalq artisti Tariyel Qasımovun xatirələrindən:

“Qastrollara gedəndə onun iştirak etdiyi tamaşalar anşlaq olardı. Hətta tamaşadan sonra da ondan əl çəkmirdilər. Axırda administrator deyirdi, ay camaat, bu kişini buraxın, gedib bir tikə çörək yesin... Belə bir (!) Xalq artisti Fəxri xiyabanda dəfn edilmədi; nə var-nə var, partiya üzvü deyildi…”

**Tahir ABBASLI**

# Milli Dram Teatrı Bolqarıstan teatrı ilə əməkdaşlıq edəcək

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı və Bolqarıstan Milli Teatrı arasında əməkdaşlıq memorandumu imzalanıb. Teatrın mətbuat xidmətindən bildirilib ki, sənədi Bolqarıstan Milli Teatrının baş direktoru Marius Donkin və Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azərpaşa Nemətov imzalayıb.



Mərasimdə iki teatrın rəhbəri memorandumun qarşılıqlı əməkdaşlıq baxımından böyük əhəmiyyət daşıdığını diqqətə çatdırıblar.

Qeyd olunub ki, sənəddə Bolqarıstan və Azərbaycanın milli teatrları arasında əməkdaşlığın inkişaf etdirilməsi, yaradıcı və fərdi səviyyələrdə qarşılıqlı tanışlıq və fəaliyyət, teatrlarda yeni incəsənət platformaları, ideya və formaların yaradılması və onların müzakirəsinin təşkili kimi məsələlər əksini tapıb.

Memorandum, eyni zamanda klassik və müasir dram əsərlərinin mübadiləsi, hər iki kollektivin ayrı-ayrı peşə sahələri – aktyor, səhnə, geyim dizaynerləri və digər işçilərin səmərəli qarşılıqlı fəaliyyət göstərə bilməsi, yalnız yaradıcılıq sferasında deyil, real teatr məhsulunun, marketinq tədqiqatlarının, ümumi insan resursları strategiyalarının, birgə layihələrin, festival və teatra dair seminarların təbliği sahəsində də ikitərəfli işçi qruplarının yaradılmasına, Bolqarıstan və Azərbaycan arasında mədəni əlaqələrin inkişafına dəstək olmaq məqsədi daşıyır.

Bolqarıstan teatrının rəhbəri Akademik Milli Dram Teatrının yaradıcı həyatı, truppa üzvləri ilə tanış olub, ona teatrın nəzdində yeni fəaliyyət göstərən Abbas Mirzə Şərifzadə, Mehdi Məmmədov, Tofiq Kazımov və Adil İsgəndərov səhnələri haqqında məlumat verilib.

# "Mənim yay tətilim"in birinci sərgisi açılıb

## 12 yaşa qədər uşaqların əl işləri nümayiş olunur

Bakı Xətai Sənət Mərkəzinin elan etdiyi "Mənim yay tətilim-2018" adlı respublika uşaq rəsm müsabiqəsinin birinci yekun sərgisi açılıb.

Müsabiqəyə ümumilikdə 700-dək uşaq qatılıb. Müsabiqənin birinci yekun sərgisində 12 yaşa qədər 150 uşağın 160 işi nümayiş edilir.

Sərginin açılışından öncə Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov çıxış edərək layihənin əhəmiyyətindən danışıb.

Vurğulayıb ki, müsabiqə Mədəniyyət, Təhsil nazirlikləri, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə məktəblilərin yay tətili xatirələrini rənglərlə anlatma bacarıqlarını təkmilləşdirmək məqsədilə təşkil edilib.



Sonra qonaqlar sərgi ilə tanış olublar.

Müsabiqənin ikinci yekun sərgisində 12-17 yaşarası 140 uşağın 145 işi nümayiş ediləcək.

# Bakının adsız heykəlləri – onları necə tanıyaq?



Bakı öz tarixi memarlıq nümunələri ilə zəngindir. Şəhərin tarixi simasını daha da rövnəqləndirən, uzaq keçmişin izlərini yaşadan binalar, saraylar, digər tikililərilə yanaşı, görkəmli insanların xatirəsinə ucaldılan abidələri də maraq doğurur.

Paytaxtımızda ilk heykəl 1922-ci ildə qoyulub. Böyük satirik şair Mirzə Ələkbər Sabirin heykəli müsəlman Şərqində ilk belə abidə hesab olunur. İndi Bakıda, eləcə də bölgələrimizdə heykəltəraşlıq əsərləri geniş yayılıb. Bu həm ölkəmizin mədəni inkişafının göstəricisi, həm də tarixi şəxsiyyətlərimizə verilən dəyərin bir örnəyidir.

Amma Bakıda bir sıra heykəllər var ki, onların üzərində şəxsin kimliyi, bəzi hallarda şəxsin doğum və ölüm tarixi, eyni zamanda heykəlin müəllifinin kim olduğu qeyd edilməyib. Əlbəttə, tariximizdə elə önəmli şəxsiyyətlər var ki, onların adlarını görmədən də kimliyi bəlli olur. Sözsüz ki, bu yanaşmanı bütün heykəllərə aid etmək mümkün deyil. Ölkəmizdə çoxlu beynəlxalq tədbirlərin keçirildiyi, turist axınının artdığı bir vaxtda bu məsələ daha çox aktuallıq kəsb edir.

Bununla bağlı mütəxəssislərin fikrini öyrənməyə çalışdıq. Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev deyir ki, heykəllərin, ümumiyyətlə, bu tip abidələrin üzərində adların yazılması önəmli məsələdir: "Görürsən gözəl bir heykəldir. Amma üzərində nə əsərin, nə də müəllifin adı var. Bəzi heykəllərin üzərində şərəfinə ucaldılan şəxsin adı var, lakin əsərin müəllifi qeyd olunmayıb. Mən hesab edirəm ki, bu bir problemdir. Yadımdadır, 1989-cu ildə Xalq rəssamı Əzim Əzimzadənin büstünü qoymuşdular. Onun da üzərində kimliyi qeyd olunmamışdı. Gələn-gedən baxırdı və kimə aid olduğu əksər insanda sual doğururdu".

Ziyadxan Əliyev problemdən çıxış yolunu da göstərdi: "Hesab edirəm ki, abidənin üzərində kimin şərəfinə ucaldılıbsa, onun və heykəlin müəllifinin adı mütləq qeyd olunmalıdır. Əksər heykəllərdə adlar yazılıb, amma müəllifin adı "unudulub". Düşünürəm ki, bu qanun və ya norma kimi tətbiq oluna bilər. Məsələn, görkəmli müğənni Rəşid Behbudovun Mahnı Teatrının qarşısında yeni ucaldılan abidəsində müəllifin də adı qeyd olunub. Heykəltəraş Fuad Salayevin bu əsərində belə bir qeydin olmasını təqdirəlayiq hal hesab edirəm".

Xalq rəssamı, tanınmış heykəltəraş Natiq Əliyev də bu məsələyə birmənalı yanaşdı: "Heykəllərin üzərində kimə məxsusdursa adı və müəllifi mütləq yazılmalıdır. İnsanlar bilməlidir ki, bu abidə kimin şərəfinə ucaldılıb, bu heykəl kimin əsəridir. Bu əsərlər daşa köçürülmüş canlı tarixdir. Onları həm ölkə vətəndaşları, həm də xarici qonaqlar görür. Tutaq ki, yerli sakinlər bildi bu şəxs kimdir. Bəs xaricilər? Bu əsərlər gələcəyə bir mesajdır. Bu mesajlar anlaşıqlı olmalıdır. Tarixə baxsaq görərik ki, məscidlərin, sarayların, qalaların üzərində kimin tikdirdiyi, kimin şərəfinə tikildiyi və tikilinin müəllifinin kim olduğu həmişə qeyd edilirdi. Bu gün bu yazılar bizə bütün tarixi məlumatları, mesajları özü çatdırır".

Natiq Əliyev deyir ki, indi yaradılan abidələr Azərbaycanın yeni yazılan tarixidir. Ona görə də tarixi məlumatları gələcəyə düzgün çatdırmalıyıq: "Bu məsələ dünyanın bir çox ölkələrində öz həllini tapıb. Orada bütün heykəllərin üzərində kimə məxsus olduğu və lap aşağı hissədə müəllifin adı qeyd olunur. Mütləq deyil ki, bizdə də heykəlin altından müəllifin adı qeyd olunsun, müvafiq bir hissədə yazıla bilər. Hesab edirəm ki, heykəlin üzərində mütləq qəhrəmanın adı, müəllifin adı, yaxşı olar ki, həm də doğum və vəfat illəri də yazılsın. Abidənin görünüşünə xələl gəlmədən şəxsiyyətin kimliyi haqqında da məlumat vermək olar. Məsələn, həkim, bəstəkar, şair, yazıçı olduğu qeyd oluna bilər. Bu, görülən işə sanbal gətirər".




Rəşid Behbudovun heykəlində müəllifin də adı qeyd olunub

Müsahibim onu da vurğuladı ki, hansı heykəllərin ki üzərini yazmaq mümkün deyil, onların yanına kimə aid olduğu və müəllifinin adı yazılan lövhələr vurulsun.

Tarix hər gün yazılır. Qoyulan abidə gələcəyə, yeni nəsillərə yadigardır. Bu baxımdan belə əsərlər özündə dolğun məlumatları əks etdirsə, keçmişi rahat səhifələyə, tarix və mədəniyyətimizi daha dürüst qoruya bilərik.

**Fariz HÜSEYNOV**

# Pantomima səhnəsində yeni tamaşa

## Yaradıcı böhran şəxsi böhrana qarışanda

Noyabrın 11-də Azərbaycan Dövlət Pantomima Teatrının səhnəsində "d`Dorian" adlı yeni tamaşa təqdim olunacaq.

Teatrdan bildirilib ki, teatrın baş rejissoru, Xalq artisti Bəxtiyar Xanızadənin "d Dorian" (musiqi ladlarından biri) adlandırdığı səhnə əsərinə Əməkdar artist Nargilə Qəribova və Vüsal Rzasoy quruluş verib.

Sevgi mövzusuna həsr edilən səhnə əsərinin məğzi belədir: onlar bir-birini görüblər, bəyəniblər, bələd olub vurulublar və seviblər... Amma kişi-qadın münasibətlərinin böhran dövrünü keçə bilməyiblər. Bunda kişinin yaradıcı insan – musiqiçi olması da əlavə əngəl törədib – yaradıcı böhran şəxsi böhrana qarışıb... Və budur... Payız fəsli, şəhərin küçələrindən biri, küçə musiqiçisi



gözündə qara eynək, əynində nimdaş plaş, üzü-nü-başını saç-saqqal basmış gitaraçı. Gənc qadın yol ötərkən ayaq saxlayır, geri dönüb onun qarşısına əsginas atır. Sonra nəzərini gitaraçının ətrafına səpələnmiş kağız qırıntıları cəlb edir...

## TƏQVİM 9-12 noyabr

### Azərbaycan

**9 noyabr 1918** – Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli (mavi, qırmızı, yaşıl) bayrağı qəbul edilib. Sovetləşmədən sonra qırmızı sovet bayrağı ilə əvəzlənib. 1991-ci ildə üçrəngli bayraq yenidən Azərbaycanın dövlət rəmzi elan edilib. Prezident İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli sərəncamı ilə 9 noyabr Dövlət Bayrağı Günü elan edilib.

**9 noyabr 1926** – Xalq rəssamı Davud Mehdi oğlu Kazımov (1926 - 14.2.2015) Bakıda doğulub.

**9 noyabr 1954** – Bəstəkar, Xalq artisti Siyavuş Əşrəf oğlu Kərimi Bakıda anadan olub.

**11 noyabr 1907** – Şair, dramaturq Mirmehdi Həsən oğlu Seyidzadə (1907 –31.8.1976) Türkmənistanın Aşqabad şəhərində doğulub. 1920-ci ildə ailəsi Bakıya köçüb.

**11 noyabr 1921** - Xalq şairi, ədəbiyyatşünas Balaş Azəroğlu (Balaş Allahbaxış oğlu Abizadə; 1921 – 24.4.2011) Bakıda anadan olub.

**11 noyabr 1934** - Xalq artisti, görkəmli xanəndə İslam Tapdıq oğlu Rzayev (1934 – 28.1.2008) anadan olub.

**12 noyabr** Konstitusiya Günüdür. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu ilə bağlı ümumxalq referendumu keçirilib.

**12 noyabr 1942** – Xalq rəssamı Mirnadir Mirəli oğlu Zeynalov anadan olub.

**12 noyabr 1950** – Əməkdar artist Pərviz Sadıq Saleh oğlu Bağırov anadan olub.

### Dünya

**9 noyabr 1818** – Rus yazıçısı İvan Sergeyeviç Turgenev (1818 - 3.9.1883) anadan olub. Əsərləri: "Atalar və oğullar", "Ərəfə", "Rudin", "Asya", "Ovçunun qeydləri" (hekayələr toplusu).

**9 noyabr 1832** – Fransız yazıçısı, detektiv janrın banilərindən biri Emil Qabrio (Emile Gaboriau; 1832-1873) anadan olub.

**10 noyabr 1759** – Alman şairi, dramaturqu və incəsənət nəzəriyyəçisi İohann Fridrix Şiller (Johann Christoph Friedrich von Schiller, 1759 - 9.5.1805) anadan olub. Pyesləri: "Qaçaqlar", "Məkr və məhəbbət", "Mariya Stüart" və s.

**10 noyabr 1928** – İtalyan bəstəkarı, dirijor və aranjimançı Ennio Morrikone (Ennio Morricone) anadan olub. Fəxri "Oskar" mükafatına (2007) layiq görülüb.

**11 noyabr 1821** – Rus yazıçısı, mütəfəkkir, publisist Fyodor Mixayloviç Dostoyevski (1821 - 9.2.1881) anadan olub. "Alçaldılmış və təhqir olunmuşlar", "Cinayət və cəza", "İdiot", "Şeytanlar", "Karamazov qardaşları" və s. romanların, povest və hekayələrin müəllifidir.

**11 noyabr 1944** – Türk aktyoru Kamal Sunal (1944 - 3.7.2000) anadan olub.

**12 noyabr 1840** – Fransız heykəltəraşı, heykəltəraşlıqda impressionizmin ("Mütəfəkkir" heykəli) banilərindən Fransua Ogüst Roden (François-Auguste-Rene Rodin; 1840-1917) anadan olub.

**12 noyabr 1935** – SSRİ Xalq artisti Lyudmila Markovna Qurçenko (1935 - 30.3.2011) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA 10-13 noyabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 10 noyabr | A.Pyatsolla - "Məhəbbət tanqosu" (balet) | 19.00 |
| 11 noyabr | Ü.Hacıbəyli - "Leyli və Məcnun" (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 10 noyabr | M.Qavran - "Qəribə, çox qəribə əhvalat" | 19.00 |
| 11 noyabr | II MAP Teatr Festivalı - Qoqol-Mərkəz (Rusiya)<br>N.Nekrasov - "Rusiyada kim yaxşı yaşayır?" | 19.00 |
| 13 noyabr | C.Məmmədquluzadə - "Ölülər" | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 11 noyabr | Ə.Səmədli - "Meşə çaqqalsız olmaz"<br>Ü.Hacıbəyli - "Arşın mal alan" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 10 noyabr | A.Puşkin – "Çar Saltan, knyaz Qvidon və şahzadə qu quşu haqqında nağıl"<br>E.İonesko – "Mərasim" | 12.00<br>19.00 |
| 11 noyabr | V.Neverov - "Nağılı tap-1"<br>P.Qladilin – "Afina axşamları" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 10 noyabr | II MAP Teatr Festivalı<br>Moskva Balet Teatrının "Kafe "İdiot" tamaşası | 17.00 |
| 11 noyabr | P.Pançev - "Dörd əkizin nağılı" | 12.00<br>14.00 |
| | C.Cabbarlı - "Aydın" | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 10 noyabr | MAP II Teatr Festivalı<br>"Merlin Puppet Theatre" (Almaniya, Yunanıstan) - "Klounların evləri" | 15.00 |
| 11 noyabr | K.Kollodi - "Pinokkionun sərgüzəştləri" | 12.00<br>14.00 |
| | K.Kollodi - "Pinokkionun sərgüzəştləri" (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər prospekti 36 - Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 10 noyabr | P.Nurəliyeva "Sonuncu" | 19.00 |
| 11 noyabr | R.Akutaqava - "Müəmmalı qətlin üç versiyası" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 10 noyabr | A.Çexov - "İt gəzdirən xanım" | 18.00 |
| 11 noyabr | B.Xanızadə - "Fəlakət və İnsan"<br>E.Rzayev - "Mənim balığımsan" | 14.00<br>18.00 |

**Heydər Əliyev Sarayı (Bülbül prospekti 35)**

| | | |
|---|---|---|
| 10-12 noyabr | "Bu şəhərdə" şou proqramı | 19.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 10 noyabr | Türk Qafqaz İslam Ordusunun 100 illiyinə həsr olunmuş konsert<br>Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri (dirijor Yalçın Adıgözəlov) | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 13 noyabr | Əməkdar artist Təhmiraz Şirinovun 70 illiyinə həsr olunmuş tədbir | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 11 noyabr | Uşaqlar üçün "Pişiyin evi" balet tamaşası<br>"Ağbəniz və yeddi cırtdan" balet tamaşası | 12.00<br>15.00 |



# Qədimlik və müasirlik...

## yaxud barokko musiqisi şouya necə çevrildi

Barokko musiqisi və rəqs. Bu anlayışları yanaşı qəbul etmək sanki qollu tərəzinin bir gözünə daş qoyub, o biri gözünə də heç nə atmadan yerdən qaldırmaq cəhdinə bənzəyir... Əslində, mənimçün barokko musiqisi əsasında şou yaratmaq yox, hətta onun rəqslə təqdimatını vizuallaşdırmaq cəhdinin son həddi Qriqori Kozinsevin "Hamlet" filmində Ofeliyanın rəqs etdiyi epizod ilə bitir. Yəni bitirdi. Ta noyabrın 6-da "YARAT"ın keçirdiyi "M.A.P." festivalı çərçivəsində İtaliyanın "NoGravity" teatrının "Ariya" konsert-tamaşasını görənədək...

Bakı Konqres Mərkəzinin böyük salonunda əyləşib "Ariya"nın ilk nömrəsini seyr edəndə hətta bir anlığa adama elə gəldi ki, sanki o, canlı konsert-tamaşaya deyil, əvvəlcədən videolentə alınmış çıxışına baxırsan. Lakin musiqi alətlərinin canlı səslənişi, teatrın vokalçı solisti – soprano səsli xanımın ifası çaşqınlığa son qoydu. Səhnəni salondan ayıran, zorla sezilən tor pərdə, yalnız tamaşa iştirakçılarının işıqlandırılması seyrçiyə ismarış ötürür ki, incəsənətin barokko dövrü XXI əsrə bizi bir-birimizdən tük qədər nazik arakəsmə qədər yaxındır. Yəni, geniş və cəsarətli düşüncə tükənməz təxəyyüllə birləşərsə, yerdə qalanı istedad, işləmək həvəsi və texnoloji imkanlar sayəsində mümkündür.

"NoGravity". Adından göründüyü kimi, bu teatr kollektivi qravitasiyanı, yəni yerin cazibə qüvvəsini "qəbul etmir" və bunu sözdə deyil, səhnədə sübuta yetirir. Bəli, bu teatrın rəqqasları, iki vokalçısı – soprano və kontratenor uçmağı bacarırlar. Həm də onlar rəqs elementlərini mükəmməl yerinə yetirməklə uçuş effektinə nail olmurlar, texnoloji imkanlardan bəhrələnərək uçurlar. Bu teatrın repertuarına tam bələd olmasaq da, konsert-tamaşada göstərilən ilk nömrələrdən birində - kontratenor (barokko üslubunda vokal əsərlərinin əksəriyyəti məhz bu nadir kişi səsi üçün bəstələnir) elmi adı "bombos" olan nəhəng eşşəkarısı qılafında səhnəyə çıxır və uçaraq oxuyur. Yəqin ki, bu da təsadüfi deyil. Əgər bir həşərat fizikanın qanununa zidd çıxaraq uçursa, insan niyə uçmasın? Ola bilsin ki, belə bir kollektivin yaranma ideyasında barokko janrında ən gözəl nümunələri yaratmış Vivaldi, Monteverdi, Perqolozi və Tartininin yaşadığı əyyamda Avropada məhz levitasiyaya – insanın uçmasına marağın yarandığı və pik həddinə çatdığı dövrə təsadüf etməsinin də rolu var.

Tamaşa boyu "Roma Barocca Ensemble" qədim alətlər qrupunun müşayiəti, XVII əsrdən gələn musiqi və XXI əsr rəqqaslarının heyrət doğuracaq dərəcədə plastikası, öz fiziki gözəlliyini zərifliklə heç bir videoproyeksiyadan yararlanmadan nümayiş etdirmələri adamı gerçəkdən heyrətə salırdı. Rəqqas-akrobatların pərvaz etməsini hava gimnastlarının sirk şousuna oxşatmaq tam yanlış olardı. "NoGravity"nin 6 akrobat-rəqqası riskli nömrələrlə yox, musiqi nömrəsinə qurulan mini-tamaşanın ideyasını açan xoreoqrafik məharətləri ilə seyrçini təəccübləndirirdi. Çünki Mariana Porseddinin xoreoqrafik quruluşunda teatral maşineriyanın (səhnədə quraşdırılan qaldırıcı mexanizm) səhnədə mövcudluğu tamaşaçıda sirri-xuda assosiasiyası doğurur.

"Ariya"nın birləşdiyi 13 musiqi nömrəsi elə 13 qısamüddətli tamaşa təəssüratı yarada bildi. Teatrın art-direktoru və quruluşçu rejissoru Emiliano Pellisari öz səhnəqrafiyasında həm dramatik teatrın ellinizm ruhunun, italyan folklorunun ənənəvi personajlarının daşıdığı ideyanın, həm də "komedi del arte" üslubunun sintezini yarada bilib. Bunun nəticəsidir ki, sanbalca ağır, çəkicə yüngül xoreoqrafiya, ox kimi tarım çəkilmiş troslar, güzgü sistemi optik illüziya yaratmaqla tamaşanı öz məqsədinə çatdırır – musiqi heç zaman tükənmir və köhnəlmir.

Yeri gəlmişkən, "Hamlet" filmində Ofeliyanın çox incə və incə olduğundan dəfələrlə ləng hərəkətlərlə duruşunu dəyişməklə aldığı pozalarla ani duruxması barokko musiqisinin "günahı" deyil, Hamlet dövrünün rəqs anlayışının təqsiridir.

"NoGravity"nin tamaşasını seyr etmək kifayətdir ki, məşhur reklam mətninə nəzirə qoşaraq deyəsən: "Barokko qanadlandırır".

**Gülcahan MİRMƏMMƏD**

# Gənc rəssamın payız rəngləri

Noyabrın 7-də Mədəniyyət Nazirliyinin dəstəyi ilə Muzey Mərkəzinin qalereyasında gənc rəssam Milena Nəbiyevanın "Mənim payızımın çalarları" adlı sərgisinin açılış mərasimi keçirildi. Sərgidə müəllifin 60-dan çox əsəri nümayiş olunur.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov və Xalq rəssamı Arif Hüseynov çıxış edərək sərginin əhəmiyyətindən danışdılar. Bildirildi ki, sərginin ideyasının əsasında ilin fəsillərinin dəyişməsinə insanın münasibətini əks etdirən fəlsəfə durur. Təqdim olunan dekorativ-tətbiqi sənət nümunələri rəssamın yaradıcı inkişafının müəyyən mənada yenidən qiymətləndirilməsi kimi görünür. O, əsərlərində həyatın zəfərini və onun dərk edilməsinin sonsuz xoşbəxtliyini tərənnüm etməyə çalışıb.




Vurğulandı ki, sənət yolunda ilk addımlarını atan rəssamın əsərləri Türkiyənin Ankara və Rusiyanın Sankt-Peterburq şəhərlərində müxtəlif sərgilərdə təqdim olunub. Bu, M.Nəbiyevanın paytaxtımızda ikinci fərdi sərgisidir. "Mənim payızımın çalarları" rəssam və sənətsevərlər arasında ilyarım əvvəl başlamış dialoqun davamıdır.



Rəssam çıxış edərək sərgi haqqında məlumat verdi: "Fikrimcə, biz özümüzü qışdan sonra başlayan yaz kimi, payızın yayı əvəz etdiyi kimi, dövriliklə dərk edirik. Bu, ildən-ilə belə davam edir. İdrak və dərketmə prosesi bizim bütün həyatımız boyunca dayana bilməz və dayanmamalıdır. Əks halda, insanın onu əhatə edən dünyanın bütün gözəlliklərini hiss etmədiyi "ruhun və ürəyin ölümü" başlayır. Bu, xüsusilə də yaradıcılıq yolunu seçmiş insanlara aiddir. Mən öz əsərlərimdə həyatın zəfərini və onun dərk edilməsinin sonsuz xoşbəxtliyini tərənnüm etməyə çalışıram. Bu fikirlər "Mənim payızımın çalarları"nda da öz əksini tapıb".

Rəssam sərginin təşkilində dəstəyi olan hər kəsə təşəkkürünü bildirdi.

Daha sonra qonaqlar əsərlərlə tanış oldular.

Sərgi noyabrın 11-dək davam edəcək.

**FARİZ**

## Türk dünyası

# "Dünya hali" filminin qala-gecəsi

Noyabrın 7-də Nizami Kino Mərkəzində müasir Türkiyə kinematoqrafiyasının daha bir nümunəsinin – "Dünya hali" romantik komediya filminin qala-gecəsi keçirilib.

Filmdə əsas rolları ifa edən məşhur aktyor və müğənni Murat Dalkılıç, eləcə də aktrisalar Melis Sezen və Serenay Aktaş da qala-gecəsində iştirak ediblər.



Türkiyəli sənətçilər ölkəmizdə onlara göstərilən yüksək qonaqpərvərlikdən məmnun qaldıqlarını bildiriblər.

Rejissor Ömər Canın çəkdiyi "Dünya hali" filmi aşiq olma qorxusu yaşayan Sərdarın və onun məhəbbət bəslədiyi Gizemin sevgi yollarından bəhs edir.

29 yaşlı universitet məzunu Sərdar həyatını animatorluq edərək yaşayan, özünə qapanan bir gəncdir. Uzun müddətdir ki, "Ah, gözəl İstanbul" jurnalında işləyən Gizəmi sevir. Lakin qızın bundan xəbəri yoxdur. Sərdar dostları ilə girdiyi bir mərcin nəticəsində Gizəmlə tanış olub. Bir tərəfdən Gizəmi sevən jurnal müdiri Arda ilə, digər tərəfdən də onu evləndirməyə çalışan anası Həlimə ilə mübarizə aparmağa başlayan Sərdarın işi getdikcə çətinləşir...

Ekran əsəri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Türkiyəli diplomat Moldovada fəxri ada layiq görülüb

Türkiyə Cümhuriyyətinin Moldovadakı keçmiş səfiri, bir müddət Azərbaycanda da diplomatik fəaliyyət göstərmiş və ölkəmizin "Dostluq" ordeni ilə təltif olunmuş Hulusi Kılıç Komrat Dövlət Universitetinin "Honoris Causa" fəxri doktoru adına layiq görülüb.

Moldovanın Qaqauz Yeri muxtar bölgəsindəki universitetin rektoru Sergey Zaxariya türkiyəli diplomatın iki ölkə arasında əlaqələrin inkişafında rolunu yüksək qiymətləndirib.

Qaqauz Yeri Milli Məclisinin sədri Vladimir Kissa da diplomatı təbrik edərək deyib ki, o, Moldovada çalışdığı iki ilə yaxın müddətdə parlament deputatları ilə də sıx əlaqələr quraraq muxtar bölgədə həyata keçirilən layihələrə töhfə verib.

V.Kissa çıxışını bu sözlərlə bitirib: "Bura sizin evinizdir, burada sizi sevir və hər zaman gözləyirlər".

Qeyd edək ki, «Honoris Causa» (latınca "xidmətə görə") fəxri adı Moldovada görkəmli yerli və xarici siyasətçilərə, elm, mədəniyyət xadimlərinə təqdim olunur.

# Astanada gənclərin beynəlxalq yaradıcılıq festivalı

Qazaxıstanın paytaxtı Astanada gənclərin "Şabyt" XXI beynəlxalq yaradıcılıq festivalı keçirilir. Ənənəvi olaraq hər il təşkil olunan festivala müxtəlif ölkələrdən 300-dən çox gənc qatılıb.



Qazaxıstan, Azərbaycan, Belarus, Gürcüstan, İsrail, Qırğızıstan, Rusiya, Ukrayna və Özbəkistanı təmsil edən iştirakçılar "Klassik musiqi", "Xalq musiqisi", "Pop vokal", "Xoreoqrafiya" və "Jurnalistika" nominasiyaları üzrə yarışırlar.

Festival noyabrın 9-da qala-konsertlə başa çatacaq.

# Bu ölkədən çıxıb getmək...

## Almanların çoxu stressli həyatdan beziblər

Almaniyada YouGov İnstitutu tərəfindən aparılmış rəy sorğusunun nəticələrindən məlum olur ki, ölkə sakinlərinin orta hesabla hər iki nəfərindən biri mühacir olmağa hazırdır.

Reprezentativ tədqiqat iştirakçılarının 55 faizi Almaniyadan bir müddət çıxıb getmək və ya xaricdə daimi məskunlaşmaq arzusundadır. Rəyi öyrənilənlərin üçdəbiri ölkəni həmişəlik tərk etmək istədiyini bildirib. 13 faizi iki ildən beş ilədək xaricdə yaşamağı təsəvvür edir. Almaniyadan köçüb getmək istəyənlərin çoxu yaşı 65-dən yuxarı olanlardır. 18-24 yaşlarında gənclər xaricdə müvəqqəti yaşamağa maraq göstərir.

Sorğu iştirakçılarının çoxu ölkədən köçüb getmək istəyini daha sakit şəraitdə yaşamaq arzusu ilə izah edir. Mühacir olmağa hazırlaşanların 38 faizi başqa ölkələrdə stressiz həyat keçirməyə ümid edir. Mühacirət üçün digər əsaslar həyatın keyfiyyəti (33 faiz), hava şəraiti (31 faiz), həmçinin daha sabit siyasi şəraitdə yaşamaq və daha çox pul qazanmaq arzusudur.

Statistik tədqiqatlar təsdiq edir ki, almanlar qocalıq illərini, məsələn, Malyorkada qayğısız keçirmək istəyirlər. Federal Statistika İdarəsinin məlumatına görə, 2016-cı ildə Almaniyanın 281 min vətəndaşı xarici ölkələrdə qeydiyyata düşüb. Əvvəlki illərdə Almaniyanı uzun müddətə və ya həmişəlik tərk edənlərin sayı orta hesabla 140 min nəfər olub.

Almanlar arasında ən populyar ölkələr İsveçrə, Avstriya və Böyük Britaniyadır. Uzaq ölkələr arasında ABŞ, Avstraliya, Çin və Kanada liderlik edir. Avropanın cənub ölkələri arasında İspaniya, Fransa, İtaliya almanlar üçün daha populyardır. Onlar bu ölkələrə əlverişli iqlim şəraitinə və sakit həyat tərzinə görə köçüb gedirlər.

# Dörd min il yaşı olan heroqlifli daş lövhələr tapılıb

Misirin Qədim Abidələr Nazirliyi ekspedisiyasının arxeoloqları üzərində heroqlif yazılar olan qədim daş lövhə aşkar ediblər. Onların bəzisinin yaşı təqribən 4 min ildir.



Daş lövhələr Qahirənin şərqindəki Matariya rayonunda qazıntılar zamanı tapılıb. Onların üzərindəki yazılar müxtəlif dövrlərə aiddir. Mütəxəssislər yazıların kodlarını açmağa başlayıblar. Alimlərin məlumatına görə, onlardan biri çox mühüm və adı tez-tez xatırlanan ilk tanrıya – Atuma işarə edir. Misirlilər eramızdan əvvəl 664-332-ci illər dövründə Nil çayının tez-tez daşaraq insanlara fəlakət gətirməsini bu tanrının adı ilə bağlayırmışlar.

# İtaliyalı müğənninin musiqi albomu rekord vurub

İtaliyalı müğənni Andrea Boçelli ABŞ-da dünyaca məşhur musiqiçilər arasında musiqi və mini albomların həftəlik satışına görə birinci yerdə qərarlaşıb.




"Billboard 200" saytının məlumatına görə, bir həftə içində italiyalı müğənninin "Si" albomunun 12300 nüsxəsi satılmaqla amerikalı müğənni və bəstəkar Ledi Qaqanın "A Star is born" albomu da daxil olmaqla, ən çox satılan musiqi albomlarını geridə qoyub. Bundan öncə italyan ifaçı albom satışlarına əsasən Böyük Britaniyada birinci yeri qazanmışdı.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5178
**Sifariş:** 3358
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.